AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 İYUN 2018-ci il CÜMƏ № 135 (6168) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycanın perspektiv inkişafında "ağ qızıl"ın önəmi

***Prezident İlham Əliyevin sədrliyi ilə Bərdədə keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsində dövlət başçısı bildirib ki, iki il ərzində ölkədə pambığın tədarükü 35 min tondan 207 min tona çatmışdır***

**Bu gün ölkəmizdə pambıqçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, tütünçülük, fındıqçılıq və digər ənənəvi olan kənd təsərrüfatı sahələri uğurla bərpa və inkişaf etdirilir. 2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərildiyini və çox müsbət nəticələrin əldə edildiyini vurğulayan cənab İlham Əliyev bildirib ki, pambıqçılıq əməktutumlu sahədir, pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq: "Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar.**

**Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Mən əvvəlki çıxışlarımda da bunu qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna nail ola bilmişik. Eyni zamanda, pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixracyönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. İndi pambıqtəmizləmə zavodları işləyir. Onların əlbəttə ki, daha böyük səmərə ilə işləməsi haqqında danışacağıq. Ancaq bu sahəyə də təkan verildi. Eyni zamanda, bunun yerli isehsala böyük dəstəyi oldu. Çünki biz indi özümüz həm pestisid istehsal edirik, Azərbaycanda heç vaxt pestisid istehsal olunurdu. Keçən ildən başlayaraq pestisid istehsal etməyə başlamışıq. Bu il Sumqayıtda böyük gübrə zavodu fəaliyyətə başlayacaq".**

Azərbaycanın aqrar sektorunda reallaşdırılan iqtisadi islahatlar, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, imzalanan fərman və sərəncamlar bu gün öz bəhrəsini verir. Ölkədə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının strateji sahələrindən hesab olunan pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyevin qəbul etdiyi aktual qərarlar, verdiyi tapşırıq və tövsiyələr sayəsində bu gün Azərbaycanda pambıqçılığın sürətli inkişafı üçün qısa müddətdə əlverişli şərait yaradılıb. Ölkə iqtisadiyyatının şaxələndirilməsinin təmin edilməsi məqsədilə son on dörd ildə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən regional inkişaf proqramlarının reallaşdırılması nəticəsində ölkəmizdə geniş infrastruktur quruculuğu aparılıb və yerli istehsalın inkişafı üçün münbit şərait yaradılıb.

Hazırkı dövrdə əlavə valyuta tələbi yaradan, idxalı əvəz edən və ölkəyə valyuta gətirən ixracyönümlü yerli istehsalın genişlənməsinin sürətləndirilməsi məqsədilə dövlət tərəfindən konkret layihələrə yönəldilən



infrastruktur dəstəyi yerli istehsalın daha sürətli artımına, dövlət investisiyalarının məqsədyönlü və səmərəli istifadəsinə, əhalinin məşğulluğuna öz töhfəsini verəcəkdir. Ölkəmizdə pambıqçılığın inkişafına həsr olunan bu müşavirədə qaldırılan məsələlər və irəli sürülən fikirlər də bunu bir daha təsdiqləyir.

Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı, həqiqətən də, məşğulluğun inkişafına böyük imkanlar yaradır, əvvəllər iş dalınca şəhərlərə üz tutan gənclər bu gün öz kəndlərinə qayıdır, torpağı əkib-becərməyin daha faydalı olduğunu görürlər. Məlumat üçün bildirək ki, pambığın bir kiloqramının alış qiymətinin 2015-ci ildə 41 qəpik, 2016-2017-ci illərdə 50 qəpik olduğu halda, dövlət başçısının tapşırığına əsasən 2018-ci ildə qiymətin 60 qəpik müəyyən edilməsi, dövlət dəstəyi olaraq 10 qəpik subsidiya ödənilməsi pambıqçılara əlavə stimul verib. Eyni zamanda, əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması, mineral gübrələrin 70 faiz güzəştlə verilməsi, fermerlərə ayrılan kreditlər, texnika və avadanlıqlarla təminat istehsalçıların pambıq əkininə marağını xeyli artırıb. Həmçinin, rayonumuzda 4 pambıq zavodunun fəaliyyət göstərməsi fermerlərə əlverişli şərtlərlə müqavilə bağlamağa geniş imkanlar yaradıb.

**(davamı 2-ci səhifədə)**

## Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən Dəmirçi-Lahıc avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən, ümumi uzunluğu 22 kilometr olan Dəmirçi-Lahıc avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,7 milyon (on üç milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 iyun 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 12, maddə 1521; 2015, N 11, maddə 1309; 2016, N1, maddə 48; 2017, N12 (I kitab), maddə 2344; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli 431 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 iyun 2018-ci il.**

## SƏMİMİ TƏBRİKLƏR

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə Tunis xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulamaqdan böyük məmnunluq hissi keçirirəm.

Mən, həmçinin fürsətdən istifadə edərək, dost xalqlarımızın qarşılıqlı marağı naminə ikitərəfli münasibətlərimizi daha da inkişaf etdirmək üçün Zati-alinizlə birgə işləmək arzusunda olduğumu bildirməkdən məmnunluq duyuram.

*Hörmətlə,*

**Beji Kaid əs-Sebsi**
**Tunis Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Gününün yaratdığı xoş fürsətdən istifadə edərək Sizə səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Pol Biya**
**Kamerun Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Xahiş edirəm, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə mənim səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz. Sizə və yeni hökumətinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, Estoniya və Azərbaycan arasında mükəmməl münasibətlər və əməkdaşlıq ölkələrimizin mənafeyi naminə möhkəmlənməkdə və uğurla inkişaf etməkdə davam edəcəkdir. Həmçinin Avropa İttifaqı və Azərbaycan arasında əlaqələrin qarşılıqlı maraq və birgə dəyərlər əsasında möhkəmlənməsinə ümid edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

**Yuri Ratas**
**Estoniya Respublikasının Baş naziri**

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"ni "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 6, maddə 416; 2004, N 6, maddə 440, N 9, maddə 674; 2005, N 6, maddə 491, N 12, maddə 1102; 2006, N 7, maddə 592, N 8, maddə 659; 2007, N 6, maddə 615, N 9, maddə 869, N 10, maddə 947, N 11, maddə 1106; 2008, N 3, maddə 168, N 8, maddə 719; 2009, N 5, maddə 322, N 12, maddə 983; 2010, N 2, maddə 83, N 3, maddə 185; 2011, N 2, maddə 85, N 6, maddə 508, N 9, maddə 791; 2012, N 9, maddə 852; 2013, N 5, maddə 511, N 11, maddə 1320; 2014, N 12, maddə 1573; 2015, N 2, maddə 127, N 6, maddə 697, N 12, maddə 1474; 2016, N 3, maddə 455, N 6, maddə 1070, N 12, maddə 2057; 2017, N 5, maddə 783, N 10, maddə 1796) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1.6-cı yarımbəndə "cəzadan" sözündən sonra ", habelə probasiya nəzarətindən" sözləri əlavə edilsin.

**2.** 3.1.8-ci yarımbənddə "və məhkəmələrin" sözləri ", məhkəmələrin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin icra və probasiya qurumlarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 iyun 2018-ci il.**

## "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 236; 1999, N 8, maddə 493; 2001, N 10, maddə 640; 2002, N 12, maddə 726; 2006, N 7, maddə 590; 2010, N 7, maddə 610; 2014, N 11, maddə 1417; 2015, N 9, maddə 1000) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* birinci abzasın birinci cümləsinə "sənaye" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal, habelə" sözləri əlavə edilsin;

*1.2.* üçüncü abzasa "100 faizi," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal istisna olmaqla," sözləri əlavə edilsin;

*1.3.* dördüncü abzasda "Səhmlərinin" sözü "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal istisna olmaqla, səhmlərinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 iyun 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 8.10-1-ci yarımbənd əlavə edilsin:

"8.10-1. probasiya nəzarətinin həyata keçirilməsini təmin edir;".

**2.** 9.27-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.27. probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 iyun 2018-ci il.**

# Azərbaycan-Əlcəzair əlaqələrinin inkişafı üçün yaxşı imkanlar var



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 21-də Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Əlcəzair arasında yaxşı əlaqələrin mövcud olduğunu deyən Baş nazir Novruz Məmmədov bu səfərin münasibətlərimizin daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb və ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycanın Baş naziri iqtisadiyyatın bir sıra istiqamətlərində, o cümlədən energetika, turizm, sənaye və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün yaxşı imkanların olduğunu bildirib.

Hüquqi sahədə inkişaf edən münasibətlərimizdən danışan Baş nazir Azərbaycanın və Əlcəzairin Ədliyyə nazirlikləri arasında ötən il imzalanmış Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsinə yaxşı imkan yaratdığını söyləyib. Novruz Məmmədov Əlcəzair nümayəndə heyətinin bu səfəri çərçivəsində iyunun 21-də imzalanmış ekstradisiya haqqında dövlətlərarası müqavilənin ölkələrimiz arasında hüquqi bazanın möhkəmlənməsi baxımından önəmini qeyd edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Baş nazir Novruz Məmmədov deyib ki, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsi böyük önəm kəsb edir.

Əlcəzairin ədliyyə naziri Tayeb Louh Bakıya səfərindən məmnunluğunu ifadə edib, göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O, Azərbaycanda uğurla keçirilən prezident seçkilərinə və dövlətimizin başçısı İlham Əliyevin seçkilərdə qazandığı inamlı qələbəyə görə təbriklərini çatdırıb.

Tayeb Louh Əlcəzair nümayəndə heyətinin Azərbaycana səfərinin və imzalanmış müqavilənin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirib.

Görüşdə əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Maliyyə Nazirliyində Asiya İnkişaf Bankının nümayəndə heyəti ilə görüş keçirilib



**İyunun 20-21-də Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Bakıda səfərdə olan Asiya İnkişaf Bankının (AİB) Mərkəzi və Qərbi Asiya departamentinin direktoru Verner Lipaxın başçılıq etdiyi nümayəndə heyəti və Kşatrapati Şivajinin rəhbərlik etdiyi bankın İcraçı Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşlər keçirib.**

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlər zamanı Samir Şərifov ölkəmizin makroiqtisadi vəziyyəti, Prezident İlham Əliyevin rəhbərliyi altında hökumət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, bank sektorunun gücləndirilməsi tədbirləri, büdcə-vergi siyasəti və maliyyə intizamının daha da gücləndirilməsi, həyata keçirilən infrastruktur və investisiya layihələri, ölkədə işgüzar mühitin yaxşılaşdırılması və asanlaşdırılması, eləcə də digər istiqamətlərdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Ölkəmizin əlverişli nəqliyyat və logistika mövqeyi, iri enerji və regional nəqliyyat-infrastruktur layihələrinin təşəbbüskarı və iştirakçısı kimi tranzit imkanlarından bəhs edən nazir bu günlərdə Azərbaycan və Türkiyədə rəsmi açılış mərasimləri keçirilən Cənub Qaz Dəhlizi, ötən il istismara verilən Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də Şimal-Cənub nəqliyyat dəhlizi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələrin qlobal miqyasda böyük əhəmiyyət daşıdığını, bu tranzit və nəqliyyat xətlərinin region ölkələri üçün böyük imkanlar yaratdığını vurğulayıb.

AİB-ın Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyən ilk beynəlxalq maliyyə qurumu olduğunu xatırladan S.Şərifov bankın Azərbaycanda həyata keçirdiyi layihələrin dövlət və özəl sektorları əhatə etdiyini və dövlətin inkişaf strategiyalarına uyğun olaraq həyata keçirildiyini qeyd edib. Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsini təmin etmək üçün ölkə rəhbəri tərəfindən hökumət qarşısında mühüm vəzifələr qoyulduğunu deyən nazir S.Şərifov Azərbaycanda davamlı iqtisadi inkişafın təmin olunması istiqamətində qarşıya qoyulan məqsədlərə çatmaq üçün Asiya İnkişaf Bankının öz töhfəsini verməkdə davam edəcəyinə əminliyini ifadə edib.

Azərbaycana səfərdə məqsədlərinin AİB-in fəaliyyətini müşahidə etmək, ölkənin inkişaf ehtiyacları ilə daha yaxından tanış olmaqla bankın fəaliyyətinin səmərəliliyini daha da artırmaq üçün strateji istiqamətləri müəyyən etmək olduğunu bildirən İcraçı Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətinin rəhbəri Kşatrapati Şivaji ölkəmizdə qazanılan iqtisadi uğurları və həyata keçirilən islahatları yüksək qiymətləndirib.

AİB rəsmləri Azərbaycanla bank arasında əməkdaşlığın sürətlə inkişaf etməsindən məmnunluqlarını ifadə edərək mühüm və etibarlı tərəfdaş kimi Azərbaycanda davamlı iqtisadi inkişafın təmin olunması istiqamətində AİB-in öz töhfəsini verməkdə davam edəcəyini vurğulayıblar.

Görüşlər zamanı, həmçinin Azərbaycan ilə AİB arasında əməkdaşlığın hazırkı vəziyyəti və gələcək istiqamətləri, o cümlədən neft-qaz, avtomobil və dəmir yolları nəqliyyatı, energetika, su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihələri, Kontrtsiklik Proqramının maliyyələşdirilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycanın perspektiv inkişafında “ağ qızıl”ın önəmi

***Prezident İlham Əliyevin sədrliyi ilə Bərdədə keçirilən pambıqçılığın inkişafına dair respublika müşavirəsində dövlət başçısı bildirib ki, iki il ərzində ölkədə pambığın tədarükü 35 min tondan 207 min tona çatmışdır***

**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı” pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsinə əlavə təkan verib. Pambıqçılığa göstərilən bu xüsusi diqqət və qayğı kənd təsərrüfatının əməktutumlu və ölkəmiz üçün ənənəvi olan bu sahənin sürətli inkişafını təmin edib və çox qısa bir müddətdə ölkə üzrə pambıq əkini sahələri 18 min 800 hektardan 140 min hektara çatdırılıb. Pambıq əkininə verilən subsidiyalar, gübrə və pestisidlərin istifadəsinə tətbiq olunan güzəştlər, “Aqrolizinq” ASC tərəfindən texnikaların güzəştli şərtlərlə satılması, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə ayrılan kreditlər bu sahənin inkişafına müsbət təsir göstərib. Cari mövsümdə pambığın alış qiymətinin hər kiloqram üçün 0,10 AZN artırılaraq 0,60 AZN-ə çatdırılması, gübrələrə verilən güzəştlərin 50 faiz, pestisidlərə verilən güzəştlərin isə 5 dəfə artırılması pambıqçıları sevindirib, bu sahəni daha gəlirli və fermerlər üçün cəlbedici edib.

2017-ci ildə tədarük edilmiş 207 min ton xam pambığın artıq 114 min tonu emal olunub. 45 min ton mahıc, 55 ton çiyid, 1540 ton köməkçi məhsullar alınıb. 2017-ci ildə istehsal olunan məhsullardan yerli istehsal tələbatı daxil olmaqla 26 milyon ABŞ dolları dəyərində mal satılıb ki, bunun da 17,7 milyon dolları ixracın payına düşür. Hazırda məhsulların istehsal və satış prosesi davam edir. Bu ilin əvvəlində Mingəçevir Sənaye Parkı ərazisində açılışı olan iki iplik istehsalı fabriki yerli xammaldan istifadə etməklə sənaye və kənd təsərrüfatı məhsullarının istehsalında önəmli rol oynayacaq.

Biz indi pambığı mahlıca, mahlıcı isə ipliyə çeviririk və ixrac edirik, eyni zamanda, daxili istehsalda bundan istifadə edirik, —deyən cənab İlham Əliyev bildirib ki, tədarük edilən bütün pambıq və ondan hazırlanan mahlıcın Azərbaycanda emal olunmasına, ipliyə və ondan sonra hazır məhsula çevrilməsinə çalışmalıyıq: “Biz bu işlərə əlavə dəyər qataraq həm minlərlə yeni iş yeri yaradacağıq, həm də daha böyük qiymətə rəqabətqabiliyyətli məhsul ixrac edəcəyik. Yəni, biz artıq bu işin ortasındayıq. İplik fabriklərinin emal gücü 44 min tondur. Bu, çox yaxşı göstəricidir, daha da artmalıdır. Ondan sonra bununla paralel olaraq hazır məhsulun istehsalı da nəzərdə tutulmalıdır. Bax, görün, pambığın istehsalı ölkəmizə nə qədər xeyir gətirir. Qeyd etdiyim kimi, bu, ölkəmizə valyuta, yeni texnologiyalar gətirir, nəinki pambıq yetişdirən rayonlarda, indi Mingəçevir şəhərində iş yerləri yaradılır. Çünki bu fabriklər dünyanın ən qabaqcıl texnologiyaları əsasında fəaliyyət göstərirlər. Keçən il olduğu kimi, bu il də bütün aidiyyəti qurumlar, mərkəzi, yerli icra orqanları, tədarükçü şirkətlər, fermerlar, zəhmətkeşlər bir komanda kimi fəaliyyət göstərməlidirlər. Mövsüm ərzində mövcud olan, yəni, qarşıya çıxacaq problemlər dərhal öz həllini tapmalıdır və elə etməliyik ki, biz bu mövsümü maksimum səmərə ilə başa vuraq”.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**

# Təhsil Nazirliyi ötən ildəki fəaliyyəti ilə bağlı hesabat verib






**İyunun 21-də Təhsil Nazirliyinin 2017-ci ildə gördüyü işlərlə bağlı hesabatına həsr olunan tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirin müavini Əli Əhmədov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, müvafiq qurumların rəhbərləri, Milli Məclis deputatları, ali məktəb rektorları iştirak ediblər.

Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev təhsilin keyfiyyətinin yüksəldilməsi, əhatəliliyi və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib.

Təhsil naziri Ceyhun Bayramov “Təhsil sistemi - vəzifələr və hədəflər” mövzusunda təqdimatla çıxış edib.

Təhsilin inkişafının ölkəmizin tərəqqisi baxımdan vacib amil olduğunu vurğulayan nazir Prezident İlham Əliyevin bu sahəyə daim xüsusi önəm verdiyini bildirib. Vurğulanıb ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədinin qəbulundan ötən müddət ərzində təhsil sahəsində müsbət dinamika müşahidə olunub, beş il bundan əvvəl ilə müqayisədə uğurlu nəticələr əldə edilib.

Təhsil sahəsində həyata keçirilən layihələrdən danışan nazir 2020-ci ilədək məktəbəhazırlığın əhatəlilik səviyyəsinin 90 faizə çatdırılmasının nəzərdə tutulduğunu söyləyib. C.Bayramov qəbul imtahanlarının yeni modelindən bəhs edərək bildirib ki, hazırda bu istiqamətdə Dövlət İmtahan Mərkəzi ilə sıx əməkdaşlıqda iş aparılır.

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklikləri xatırladan nazir ali təhsil müəssisələrinə qəbul üzrə əsasən iki dəyişikliyin nəzərdə tutulduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, həmin dəyişikliklər beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin müəyyənləşdirilmiş şərtlər yerinə yetirilməklə, təhsil aldıqları dildə tədris olunan ixtisaslar, beynəlxalq fənn olimpiadaları qaliblərinin istənilən ixtisaslar, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaları ilə bağlıdır.

Müəllim peşəsinin nüfuzunun yüksəlməsinə təsir göstərən tədbirlərin davam etdiriləcəyini bildirən C.Bayramov sertifikasiya mexanizminin tətbiqinin təhsildə keyfiyyət baxımından nailiyyətlər əldə olunmasında vacibliyini diqqətə çatdırıb.

Tədbirdə “Təhsil” televiziyasının 2017-ci ildə təhsil sahəsində həyata keçirilən tədbirlərə və yeniliklərə dair hazırladığı videoxronika nümayiş olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə müasir dünyada elmin, təhsilin mühüm rolundan danışıb, bu sahələr arasında inteqrasiyanın genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Akademik A.Əlizadə ölkəmizdə elmin, təhsilin inkişafı üçün geniş imkanların yaradıldığını vurğulayıb.

Təhsil sahəsində aparılan islahatların mühüm keyfiyyət mərhələsinə qədəm qoyduğunu qeyd edən Baş nazirin müavini Əli Əhmədov Prezident İlham Əliyevin bu sahəni prioritet elan etməsi nəticəsində ölkəmizin gələcəyinin parlaq olacağına əminliyini bildirib.

Baş nazirin müavini, eyni zamanda, təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı fikirlərini söyləyib.

**AZƏRTAC**

# Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin məzunlarının növbəti buraxılışı olub





**İyunun 21-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının növbəti buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin rəhbərliyi, yüksək rütbəli zabitləri, Ali Hərbi Məktəbin, ictimaiyyətin nümayəndələri, veteranlar, məzunların ailə üzvləri və yaxınları iştirak ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi məktəbin ərazisində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin və kursantların ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov əlamətdar gün və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə gənc zabitləri, onların valideynlərini təbrik edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsi olaraq, bu gün Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır olduğunu bildirən müdafiə naziri məzunlara ölkəmizin gələcəyi, ordumuzun, dövlətimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində uğurlar diləyib.

Sonra ali hərbi məktəbi fərqlənmə ilə bitirən məzunlara diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

Məktəbi fərqlənmə ilə bitirən məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurublar.

Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin döyüş bayrağının təhvil verilməsi və qəbul edilməsi mərasimi olub. Ali Hərbi Məktəbin döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Nümunəvi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edilib.

Sonda kursantlar hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

**AZƏRTAC**

# Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin inkişafı yolları müzakirə edilib

**İyunun 21-də Azərbaycanın xarici işlər nazirinin müavini Ramiz Həsənov Əfqanıstanın xarici işlər nazirinin müavini Nəsir Əhməd Andişan ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycana rəsmi şəxs qismində ilk dəfə səfər etdiyini deyən qonaq ölkəmizə səfərindən məmnun olduğunu söyləyib, xalqlarımız arasında qədim tarixi köklər və mədəni bağlılıqlar üzərində qurulan xoş münasibətlərin mövcudluğunu vurğulayıb. O, ölkəmizin müxtəlif sahələrdə qazandığı uğurlu təcrübə ilə bilavasitə tanış olmaq, bu gün yüksək səviyyədə olan siyasi müstəvidəki münasibətlərlə yanaşı, ikitərəfli əməkdaşlığın digər sahələrdə də inkişaf etdirilməsinin perspektivlərinə dair fikir mübadiləsi aparmaq niyyətində olduğunu bildirib.

N.Ə.Andişa “Asiya qəlbi” prosesi çərçivəsində və Əfqanıstandakı sülhməramlı əməliyyatlar, eləcə də təmsil etdiyi ölkədə sabitliyin təmin edilməsində Azərbaycanın oynadığı vacib rolu böyük məmnuniyyətlə qeyd edib. Ölkəsinin həmişə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Azərbaycana dəstək göstərdiyini və beynəlxalq təşkilatlarda ənənəvi əsasda prinsipial mövqe nümayiş etdirdiyini xüsusilə önə çəkib.

Nazir müavini Ramiz Həsənov ölkələrimiz arasında dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində təmasların daimi əsasda saxlanıldığını, ümumiyyətlə, siyasi münasibətlərin qarşılıqlı anlaşma şəraitində uğurla inkişaf etdiyini söyləyib. Bununla yanaşı, ticari-iqtisadi, mədəni, elm və təhsil sahələrində ikitərəfli əməkdaşlığın potensialından daha geniş istifadə edilməsinin faydalı ola biləcəyini deyib.

Bu baxımdan Əfqanıstan tərəfinin diqqəti Azərbaycanın gerçəkləşdirdiyi nəhəng regional layihələrə cəlb edilib. Vurğulanıb ki, 2017-ci ilin oktyabrında istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Uzaq Şərq, Mərkəzi Asiya, o cümlədən Əfqanıstanı Avropa ilə birləşdirən ən qısa və münasib yoldur. Bu layihənin, əvvəl yerinə yetirilmiş Bakı-Tbilisi-Ceyhan və digər infrastruktur təşəbbüslərimiz kimi, nəinki təkcə Azərbaycana, bütün qonşu bölgələrə də böyük səmərə gətirəcəyi bildirilib.

Bu günədək iki dövlət arasında 11 sənədin imzalandığı bildirilib, həmin normativ-hüquqi bazadan daha səmərəli şəkildə istifadə edilməsinin vacibliyi vurğulanıb. Parlamentlərarası dostluq qrupları, mədəniyyət və təhsil sahələrində müvafiq qurumlar arasında əməkdaşlığın əhəmiyyətindən bəhs edilib.

Görüşün yekunlarına dair tərəflər Azərbaycan-Əfqanıstan münasibətlərində əldə edilmiş zəminə əsasən, iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin aparılacağından əminlik ifadə ediblər.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər naziri Minskdə belaruslu həmkarı ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Minskdə keçirilən Şərq Tərəfdaşlığı ölkələri xarici işlər nazirlərinin iclasında iştirakı çərçivəsində iyunun 21-də belaruslu həmkarı Vladimir Makey ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov səfər əsnasında ona və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib.

Nazirlər bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunmasına toxunaraq ötən illər ərzində Azərbaycan ilə Belarus arasında qarşılıqlı anlaşmaya və etimada əsaslanan dostluq və tərəfdaşlıq münasibətlərinin qurulduğunu məmnunluqla vurğulayıblar.

Görüşdə ölkələrimiz arasında yüksək səviyyəli dialoq təqdir edilib, dövlət başçılarının iradələrinə uyğun olaraq ikitərəfli əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. İkitərəfli əməkdaşlığın ruhuna uyğun olaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olunub, qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Nazirlər, həmçinin beynəlxalq və regional gündəliyə aid məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

**AZƏRTAC**

# Əlcəzair ilə ilk dövlətlərarası müqavilə imzalanıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan hərtərəfli islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən mütərəqqi beynəlxalq təcrübəyə böyük əhəmiyyət verilir, bu məqsədlə bir çox xarici dövlətlərin Ədliyyə nazirlikləri ilə səmərəli ikitərəfli əlaqələr qurulub.**

Ötən il respublikamızın ədliyyə nazirinin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında bağlanmış ilk sənəd olmaqla ikitərəfli münasibətlərin inkişafına təkan verib. Eyni zamanda, ekstradisiya haqqında müqavilə layihəsi hazırlanaraq razılaşdırılıb və Əlcəzair Ədliyyə Nazirliyi nümayəndə heyətinin cari ilin əvvəlində ölkəmizə səfəri zamanı paraflanıb.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin sənədin imzalanması məqsədilə Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louh nümayəndə heyəti ilə Azərbaycana rəsmi səfərə gəlib.

İyunun 21-də Əlcəzair nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonra Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və Əlcəzairin ədliyyə naziri Tayeb Louhun görüşü keçirilib.

Azərbaycan və Əlcəzair arasında əlaqələrin inkişaf etdirilməsində hər iki ölkənin dövlət başçıları İlham Əliyevin və Əbdüləziz Buteflikanın siyasi iradəsini qeyd edən nazir F.Məmmədov "İslam Həmrəyliyi İli" elan olunmuş 2017-ci ildə Əlcəzairə səfərini və keçirilmiş rəsmi görüşləri məmnunluqla xatırladıb, nazirliklərarası Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin genişləndirilməsində yeni səhifə açdığını söyləyib, hazırkı səfərin ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə əlavə təkan olacağına əminliyini ifadə edib.

Nazir respublikamızın müstəqillik illərində keçdiyi inkişaf yolundan bəhs edərək ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıb, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlər, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edən Tayeb Louh ölkələrimiz arasındakı tarixi əlaqələrin genişləndirilməsinə dövlət başçılarının xüsusi önəm verdiyini, hər iki ölkənin Ədliyyə nazirliklərinin bu istiqamətdə səylə çalışdığını vurğulayıb, imzalanmış Anlaşma Memorandumunun hüquqi sahədə əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini bildirib.

Qonaq, həmçinin Azərbaycanda ədliyyə sisteminin müasirləşdirilməsi, innovasiyaların tətbiqi sahəsində əldə olunan nailiyyətləri təqdir edib, səfər zamanı Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri ilə tanışlıqdan heyranlığını ifadə edib, ASAN-ın göstərdiyi xidmətləri maraqla qarşılayaraq bu sahədə təcrübəmizlə daha yaxından tanış olmaq barədə istəklərini bildirib.

Əlcəzairli nazir qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib.

Sonra Azərbaycan və Əlcəzair arasında ekstradisiya haqqında müqavilə imzalanıb.

Mərasimdə bəyanatlarla çıxış edən nazirlər qeyd ediblər ki, imzalanan bu mühüm sənəd ilk dövlətlərarası müqavilə olmaqla cinayət əməli törətmiş şəxslərin təslim edilməsi sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsinə, ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əlaqələrin möhkəmlənməsinə xidmət edəcək, cinayətkarlığa qarşı mübarizəyə töhfə verəcək.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd olunan Azərbaycan Ədliyyəsinin tarixi muzeyi ilə tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətinə və məhkəmə-hüquq islahatlarına dair, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatları əks etdirən xüsusi jurnallar və əyani vəsaitlər təqdim edilib.

Tədbirin yekununda KİV nümayəndələrinə müsahibə verilib.

Həmin gün əlcəzairli nazirin Azərbaycan Respublikasının Baş naziri ilə, həmçinin Milli Məclisdə və Baş Prokurorluqda görüşləri olub.

Səfər zamanı Konstitusiya və Ali məhkəmələrdə də rəsmi görüşlərin keçirilməsi, Əlcəzair ədliyyə nazirinin hakimlər, hakimliyə namizədlər, ədliyyə işçiləri, vəkillər və prokurorluq əməkdaşları üçün mühazirəsi, eləcə də nümayəndə heyətinin müasir məhkəmə infrastrukturu və elektron məhkəmə sisteminin tətbiqi, habelə paytaxtın mədəni və tarixi abidələri ilə tanışlığı nəzərdə tutulur.

**AZƏRTAC**

# Əlcəzairin ədliyyə naziri Baş Prokurorluqda olub



**İyunun 21-də Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov Əlcəzair Xalq Demokratik Respublikasının ədliyyə naziri Tayeb Louh ilə görüşüb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı qeyd olunaraq bu əlaqələrin möhkəmlənməsində dövlət başçıları İlham Əliyevin və Əbdüləziz Buteflikanın xüsusi rolu vurğulanıb.

Baş prokuror ölkəmizin İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini qeyd edərək, dövlətimizin başçısı tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması çərçivəsində dost Əlcəzair ilə ikitərəfli münasibətlərin inkişafı məqsədilə iki ölkənin Ədliyyə nazirlikləri tərəfindən imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun, həmçinin cari səfər çərçivəsində imzalanan ekstradisiya haqqında müqavilənin əlaqələrimizin inkişafında yeni təkan olduğunu vurğulayıb.

Qeyd olunub ki, Əlcəzairin ədliyyə naziri Tayeb Louhun dəvəti ilə Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun 2017-ci ildə nümayəndə heyəti ilə bu ölkədə səfərdə olması və Əlcəzairdən Azərbaycana nazir səviyyəsində ilk dəfə edilən bu səfər tarixi hadisə olmaqla münasibətlərimizin inkişafına, eyni zamanda, Anlaşma Memorandumu və ekstradisiya haqqında müqavilə iki ölkə arasında əməkdaşlığa dair imzalanan ilk sənədlər olmaqla müqavilə-hüquq bazasının təməlini qoyaraq, qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə dərinləşməsinə dəyərli töhfə olub.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, hər iki dövlətdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə görülən işlərə və qazanılan nailiyyətlərə böyük maraq göstərilərək, təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydası qeyd olunub.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən nazir Tayeb Louh respublikamızın hərtərəfli tərəqqisini qeyd edib, qarşılıqlı etimada əsaslanan Əlcəzair-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib.

Nazir Azərbaycanda gedən proseslərdən məlumatlı olduğunu bildirərək, ölkəmizin sürətli inkişafında, əmin-amanlığın və sabitliyin təmin olunmasında Prezident İlham Əliyevin müstəsna rolunu və xidmətlərini vurğulayıb. O, respublikamızda aparılan məhkəmə-hüquq islahatlarına böyük maraq göstərdiyini və bu islahatları təqdir etdiyini, öz ölkəsində də bu sahədə köklü islahatların aparıldığını bildirib. Nazir Tayeb Louh hüquqi sahədə təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək bunun üçün qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub, korrupsiyaya qarşı mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Türkiyədə səfərdə olmuş qazilər, aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlər ilə görüş keçirilib



**Gənclər və idman naziri Azad Rəhimov Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin dəstəyi, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin təşkilatçılığı ilə Türkiyədə səfərdə olmuş qazilərdən, aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib.**

Azad Rəhimov nazirliyin həyata keçirdiyi layihələrdə vətənpərvərlik mövzusunun xüsusi əhəmiyyət daşıdığını bildirərək, Prezident İlham Əliyev tərəfindən imzalanan və müxtəlif illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nda da məhz bu sahəyə geniş yer verildiyini diqqətə çatdırıb.

Vətənpərvərlik sahəsində həyata keçirilən tədbirlərdən danışan nazir "Şahinlər", "Qəhrəmanlarımızı tanıyaq və tanıdaq", "Hünər", "Tarixin canlı səhifələri" və digərləri haqqında söz açıb, onların hər birinin gənc nəslin sağlam və Vətənə sevgi hissi ilə yetişməsində oynadığı önəmli roldan bəhs edib.

Nazirliyin xətti ilə qazilərdən, ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyətinin Türkiyəyə səfərinin əhəmiyyətindən danışan Azad Rəhimov orada Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahında, Türkiyə Böyük Millət Məclisində, Müdafiə Nazirliyində və digər qurumlarda keçirilən görüşlərin önəmi haqqında danışıb, bu cür səfərlərin digər ölkələrə də gerçəkləşməsinin vacibliyini qeyd edib.

Nazir yetişməkdə olan gənc nəsildə vətənpərvərlik hissinin daha da artırılması, onların tariximizi daha dərindən bilmələri üçün ölkəmizdə fəaliyyət göstərən orta və ali təhsil müəssisələrində şagird və tələbələrlə qazilərdən, aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüşlər keçirilməsi təklifini irəli sürərək bunun əhəmiyyəti haqqında da danışıb.

Sonda qazilərdən, aprel döyüşlərində iştirak etmiş ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyətinin üzvləri Türkiyəyə səfərin təşkilində göstərilən dəstəyə, diqqət və qayğıya görə Gənclər və İdman Nazirliyinə təşəkkürlərini bildiriblər.

**AZƏRTAC**

# "Equinor"un bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıq imkanları müzakirə edilib

**Norveçin "Equinor" şirkətinin bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıq imkanları müzakirə olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov Vyanadakı Hofburq sarayında keçirilən Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) "Neft - dayanıqlı gələcək üçün əməkdaşlıq" mövzusunda VII beynəlxalq seminarı çərçivəsində iyunun 21-də "Equinor" şirkətinin qlobal strategiya və biznesin inkişafı üzrə vitse-prezidenti Əl Kuk ilə görüşüb.



Görüşdə Cənub Qaz Dəhlizi və TANAP boru kəmərinin açılışının əhəmiyyətindən danışılıb. TANAP layihəsinin nəzərdə tutulandan da az vəsaitlə həyata keçirilməsi təqdir edilib. Bu yaxınlarda Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" neft yatağının işlənməsi, Əşrəfi-Dan Ulduzu-Aypara sahəsinin kəşfiyyatı və işlənməsi ilə bağlı imzalanmış sazişlər neft-qaz sahəsində əməkdaşlığın inkişafında mühüm hadisələr kimi qiymətləndirilib. Şirkətin bərpaolunan enerji sahəsində yeni fəaliyyət istiqaməti çərçivəsində Azərbaycanla əməkdaşlıq imkanları nəzərdən keçirilib.

**AZƏRTAC**

*Məhəmməd Barkindo:*

# OPEC Azərbaycanla olan mövcud münasibətləri yüksək qiymətləndirir

**Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) Azərbaycanla olan mövcud münasibətləri yüksək qiymətləndirir.**

Bu sözləri AZƏRTAC-a eksklüziv müsahibəsində OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo deyib.

M.Barkindo bildirib ki, OPEC Azərbaycanla olan mövcud münasibətləri yüksək qiymətləndirir: "Bizim səylərimizi dəstəkləyən Azərbaycan Prezidenti İlham Əliyevə öz təşəkkürümü çatdırıram. Azərbaycan Prezidenti nəinki təşkilatın səylərini dəstəkləyir, həmçinin də üç il bundan öncə Davos İqtisadi Forumunda OPEC və qeyri-OPEC ölkələrinin bir araya gəlməsi üçün çağırış etmişdi".

OPEC-in baş katibi, həmçinin Azərbaycan Prezidentinə OPEC və qeyri-OPEC ölkələri Nazirlər Şurasının gələn il Bakıda keçirilməsi təşəbbüsü və dəvətinə görə də minnətdarlığını ifadə edib, gələn il Bakının bu tədbirə uğurla ev sahibliyi edəcəyinə əminliyini qeyd edib.

1846-cı ildə dünyada sənaye üsulu ilə ilk dəfə neftin məhz Bakıda çıxarıldığını qeyd edən M.Barkindo neft-qaz sənayesində işləyən hər bir mütəxəssisin Bakını ziyarət etməli olduğunu, neftin çıxarılması və emalı tarixi ilə burada daha da yaxından tanış olmasının vacibliyini bildirib.

O, Azərbaycanın energetika naziri Pərviz Şahbazova da OPEC-lə qurulan əməkdaşlığa və dəstəyə görə təşəkkür edib.

**AZƏRTAC**

*Pərviz Şahbazov:*

# Azərbaycan neft bazarının sabitləşdirilməsi prosesinin fəal iştirakçısıdır




**Azərbaycanın energetika naziri Pərviz Şahbazov iyunun 21-də Avstriyanın paytaxtı Vyanadakı Hofburq sarayında keçirilən Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) "Neft - dayanıqlı gələcək üçün əməkdaşlıq" mövzusunda VII beynəlxalq seminarında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, nazir seminarın "Dünya iqtisadiyyatı və neftin gələcəyi" adlı beşinci sessiyada məruzə ilə çıxış edib. Nazir çıxışında gələcəkdə dünya iqtisadiyyatında neftin rolu, neft bazarında mövcud tendensiyalar və Azərbaycanın neft ölkəsi kimi gələcək inkişaf strategiyasından bəhs edib.

P.Şahbazov OPEC+ formatında əməkdaşlığın neftin qiymətinin sabitləşdirilməsi məqsədinə nail olduğunu, lakin qlobal neft bazarında, neft sənayesində yaranan yeni vəziyyətin bu əməkdaşlıq üçün yeni prioritetlər müəyyənləşdirdiyini deyib: "Dünyada iqtisadi artım templəri, neft-kimya sektorunun inkişafı, bərpaolunan enerji mənbələrinin hələlik nefti əvəz edə bilməməsi kimi faktorlar yaxın perspektivdə neftin enerji balansında aparıcı mövqeyini təmin edəcək. Bununla belə bir sıra əsas neft ölkələrində geosiyasi səbəblərlə əlaqədar hasilatın kəskin azalması və bazara çıxışda gözlənilən məhdudiyyətlər, eləcə də son illərdə aşağı neft qiymətləri ilə əlaqədar transmilli şirkətlər üçün upstream sektorunun cəlbediciliyini itirməsi gələcəkdə qlobal tələbatın ödənilməsində çətinliklər vəd edir. Enerji bazarının yenidən balanslaşması, neft sənayesinə gələcəkdə tələbata uyğun investisiyaların qoyulmasını təmin etmək OPEC+ formatında əməkdaşlığı vacib edir".

O qeyd edib ki, dünya neft sənayesi və neft bazarının yaratdığı yeni həqiqətlər OPEC+ çərçivəsində əməkdaşlığın davam etdirilməsini labüd edir. Proqnozlara görə, neft enerji mənbəyi kimi hakim mövqeyini qarşıdakı onilliklərdə də qoruyacaq. Bildirib ki, cari neft qiymətləri investisiyalar baxımından neft sektorunu canlandırır. İnvestorların bu sektora maraq və inamını artırmaq, bazarın davamlığını təmin etmək üçün daha da sıx əməkdaşlığa ehtiyac var.

P.Şahbazov deyib ki, həm istehsalçı, həm də istehlakçı ölkələrin maraqlarına cavab verən bazarın formalaşması üçün ortaq həll yollarının tapılması yalnız əməkdaşlıq əsasında mümkündür. O, həmçinin "Əməkdaşlıq Bəyannaməsi"ni imzalamış Azərbaycanın qlobal neft bazarının tənzimləmə prosesində iştirakının ölkədə həyata keçirilən neft siyasətinə təsirləri, neft sektorunun inkişafı istiqamətində imzalanmış yeni sazişlər və həyata keçirilən layihələr, cəlb olunmuş investisiyalar barədə ətraflı məlumat verib: "Azərbaycanın qlobal neft bazarının sabitləşməsinə yönəldilmiş proseslərə qoşulması da ölkəmizin daxili neft siyasətinə müsbət təsir göstərib. Dünyada ilk dəfə olaraq sənaye üsulu ilə neft hasil edən Azərbaycan yeni proseslər kontekstində də tarixi mövqeyini möhkəmləndirir. OPEC+ formatı çərçivəsində "Əməkdaşlıq Bəyannaməsi"ni imzalayan və neft bazarının sabitləşdirilməsi prosesinin fəal iştirakçısı olan bir ölkə kimi Azərbaycan OPEC-in tərkibindəki bütün təşəbbüslərə öz dəstəyini bildirib".

Qeyd edilib ki, neftin qiymətinin aşağı düşməsi fonunda qlobal neft bazarında baş verən narahatlıqlar neft qiymətlərinin son zamanlar artması ilə bağlı yeni proseslə əvəz edilib. Bu proses OPEC və qeyri-OPEC ölkələri arasında xüsusi bir əməkdaşlığın sayəsində baş verib. Neft bazarlarında kommersiya ehtiyatları ilə bağlı məsələlər və neft qiymətlərinin kəskin dəyişməsi aradan qaldırılaraq, OPEC+ formatında olan əməkdaşlığımız neft qiymətlərinin sabitləşdirilməsində öz təməl məqsədinə çatıb.

Sessiyada P.Şahbazovla yanaşı, Qətərin energetika və sənaye naziri Mohammed Bin Saleh Al-Sadanın, Venesuelanın neft naziri Manuel Salvador Quevedo Fernandez və Nigeriyanın neft naziri Emmanuel İbe Kachikunun məruzələri dinlənilib.

Xatırladaq ki, seminar iyunun 20-də öz işinə başlayıb. Xanım Eithne Treanor və John Defteriosun moderatorluğu ilə keçirilən seminarın açılışında OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo çıxış edib. Həmçinin Avstriyanın inteqrasiya və xarici işlər naziri xanım Karin Kneissl və Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri, OPEC Konfransının prezidenti Suhail Mohamed Al Mazroueinin də məruzələri dinlənilib.

Energetika sahəsində keçirilən beynəlxalq tədbirlər arasında özünəməxsus yeri olan və iki ildən bir keçirilən seminarda OPEC və qeyri-OPEC ölkələrinin nazirləri, eləcə də beynəlxalq təşkilatların rəhbərləri, milli və beynəlxalq neft-qaz şirkətlərinin funksionerləri, sənaye və elmi-tədqiqat müəssisələrinin nümayəndələri, energetika üzrə ekspertlər iştirak ediblər.

Qeyd edək ki, Azərbaycanın energetika nazirinin OPEC-ə üzv və kartelə daxil olmayan ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 9-cu iclasında da iştirakı planlaşdırılır. Nazir OPEC Nazirlər Şurasının iyunun 23-də keçiriləcək 174-cü iclası çərçivəsində OPEC və qeyri-OPEC nazirlərinin 4-cü iclasına da qatılacaq.

**AZƏRTAC**

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Lənkəranda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevinin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iyunun 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Astara, Lənkəran, Lerik və Yardımlı rayonlarından olan 30 vətəndaşı qəbul edib.

Qəbuldan əvvəl general-leytenant Arzu Rəhimov və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini dərin ehtiramla yad ediblər.

Qəbula gələn vətəndaşların müraciətləri əsasən, veteran adı və vəsiqəsinin verilməsi, müddətli həqiqi hərbi xidmətə çağırılan gənclərin ailə vəziyyəti ilə əlaqədar daha yaxın hərbi hissələrdə xidmət göstərmələri, qurumun müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbul və digər məsələlərlə bağlı olub.

General-leytenant Arzu Rəhimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib.

Qəbul zamanı qaldırılan məsələlərin bir çoxu operativ surətdə həll edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydə alınaraq aidiyyəti orqanlara çatdırılması üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Dövlət Sərhəd Xidməti İran ilə sərhəddə baş verən hadisə ilə bağlı məlumat yayıb

**İyunun 21-də saat 02:45 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd qoşunlarının Göytəpə sərhəd dəstəsinin Cəlilabad rayonunun Bayxanlı kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilib.**

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunub və qarşısı alınıb.



Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları sərhəd naryadına qarşı silah tətbiq ediblər. Baş vermiş hadisə zamanı sərhəd naryadının başçısı Balakən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Kurupov Ramazan Məmməd oğlu döş qəfəsi, əl və ayaq nahiyələrindən güllə yaraları alıb. Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçıblar.

Əsgər R.Kurupov digər sərhəd naryadı tərəfindən ilkin tibbi yardım göstərildikdən sonra təcili olaraq Cəlilabad rayon mərkəzi xəstəxanasına təxliyə edilib. Xəstəxananın və DSX hərbi hospitalının hadisə ilə əlaqədar Cəlilabad rayonuna ezam olunmuş həkimləri tərəfindən əsgər təcili əməliyyat olunub.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və digər rəhbər vəzifəli şəxslər əraziyə gəlib, hadisə yerinə baxış keçirib, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar verib.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı, yerli hüquq mühafizə orqanlarının rəhbərləri Cəlilabad rayon mərkəzi xəstəxanasında əsgər R.Kurupova baş çəkib, səhhəti ilə maraqlanıblar.

General-polkovnik Elçin Quliyev sərhədçi əsgəri təcili əməliyyat edərək onun həyatını xilas etmiş tibb heyətinə, həmçinin əsgərin əməliyyatı üçün qan vermiş DİN-in Cəlilabad Rayon Şöbəsinin əməkdaşlarına dərin minnətdarlığını bildirib.

Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə əsgər Kurupov Ramazan Məmməd oğlu xidməti vəzifələrinin icrasında göstərdiyi şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.

Hadisə ilə əlaqədar zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə Hərbi Prokurorluq tərəfindən cinayət işi başlanılıb.

**AZƏRTAC**

# Nəzarətin tələbi - nəticə və şəffaflıq

## *Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun AZƏRTAC-a müsahibəsi*



**–Vüqar müəllim, cari ilin may ayında Azərbaycan Prezidenti tərəfindən dövlət büdcəsinin icrası ilə bağlı zəruri məlumatların tərtib edilməsini, eyni zamanda, dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin olunmasını tənzimləyən Qaydaları təsdiq edən Fərman imzalandı. Bu qaydalar hansı zərurətdən yarandı?**

–Son dövrlərdə dövlətimizin başçısı maliyyə intizamının yüksəldilməsi, hesabatlılığın və şəffaflığın artırılması istiqamətində mütəmadi olaraq öz tapşırıqlarını verir və bu istiqamətdə normativ-hüquqi aktlara da zəruri dəyişikliklər edilir. Dünyada baş verən iqtisadi proseslərin mənfi təsiri aparılan iqtisadi siyasətin nəticəsində Azərbaycandan yan keçsə də, mövcud resursların qorunması, həmçinin səmərəli və nəticəli istifadəsi məsələsinin aktuallığı artmaqdadır. Məhz belə yanaşma qəbul edilmiş bir sıra mühüm strateji sənədlərdə müəyyənləşdirilmiş məqsədlərin reallaşdırılmasında etibarlı maliyyə zəmininin formalaşmasına şərait yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı ilin dekabr ayında "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa mühüm əlavələr olundu və dövlət büdcəsinin icrası ilə bağlı zəruri məlumatların tərtib edilməsi, eyni zamanda, dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi bir tələb kimi müəyyənləşdirildi.

**–Qeyd edilən hesabatların təqdim olunması və məlumatlara çıxışın təmin edilməsi Hesablama Palatasının fəaliyyət dairəsinə necə təsir göstərəcək?**

–Hesablama Palatası dövlət büdcəsinin icrasına nəzarət edən kənar dövlət maliyyə nəzarəti orqanıdır və beynəlxalq təcrübəyə əsasən bu nəzarəti dövlətin adından və audit formasında həyata keçirir. Azərbaycan Prezidentinin təsdiq etdiyi Qaydaların icrası Hesablama Palatasına büdcənin gəlir və xərclərinin icra vəziyyəti ilə bağlı zəruri məlumatların vaxtında əldə edilməsinə şərait yaradacaqdır. Bu isə öz növbəsində, hesabatlılığın gücləndirilməsi istiqamətində mühüm addım olmaqla vəsaitlərdən istifadəyə nəzarətin artırılmasına, həmçinin bu istiqamətdə zəruri məlumatların vaxtında hazırlanmasına xidmət edəcək. Real vaxt rejimində çıxışın təmin edilməsi ilə bağlı Qaydada büdcə-maliyyə nəzarəti ilə əlaqədar olaraq Hesablama Palatasının sorğusu əsasında digər məlumatlara çıxışın təmin edilməsi ilə bağlı xüsusi bir bəndin müəyyənləşdirilməsi isə nəzarət tədbirlərinin vaxtında, ətraflı və səmərəli aparılmasına imkan verəcək.

**–Qaydaların tətbiqinin Hesablama Palatasının fəaliyyətinin nəticələrində necə əks olunmasını gözləyirsiniz?**

–Bu qaydalar ilk olaraq cənab Prezidentin öz çıxışlarında qeyd etdiyi kimi maliyyə nəzarətinin gücləndirilməsi, xüsusilə Hesablama Palatasının işinin səmərəli təşkil edilməsi ilə bağlı tapşırıqların icrasında mühüm əhəmiyyətə malikdir. Dövlət büdcəsinin icrasına nəzarəti həyata keçirməklə fəaliyyətimizin ana xətti dövlət büdcəsinin necə icra edilməsi ilə bağlı Rəyin tərtib olunmasından ibarətdir ki, bu qaydalarla müəyyən edilmiş hesabatların və məlumatlara çıxışın əldə olunması həm dövlət büdcəsinin icrası, eyni zamanda, dövlət büdcəsinin layihəsi ilə bağlı hazırladığımız Rəyin məlumatlılıq və əhatəlilik səviyyəsini yüksəldəcək. Ümumiyyətlə, bildirmək istərdim ki, bu qaydalar təkcə Hesablama Palatasının fəaliyyətinə təsir etməyəcək, həmçinin qaydaların tətbiqi ümumi dövlət maliyyə inzibatçılığının güclənməsinə, dövlət vəsaitləri ilə bağlı şəffaflığın artırılmasına, hesabatlılığın yüksəldilməsinə xidmət edəcək. Azərbaycan Prezidentinin bu Fərmanını qeyd olunanlarla yanaşı, bizə etimadın göstəricisi kimi qəbul edirik və bu, bizim məsuliyyətimizi artırır. Dövlətimizin başçısının göstərdiyi bu inamı layiqincə doğrultmaq üçün biz bütün gücümüzü səfərbər etmək istiqamətində fəaliyyət göstəririk.

**–Cari ilin may-iyun aylarında Hesablama Palatasının fəaliyyətini əhatə edən bir neçə mühüm sənəd - hesabat və rəylər, həmçinin yeni qanun layihəsi müzakirə edilib. Əvvəlcə 2017-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı Hesablama Palatasının mövqeyinə toxunaq.**

–Dünya iqtisadiyyatının qlobal böhrandan sonrakı dövrdə canlanması və respublikada iqtisadi inkişafın müsbət və dayanıqlı meyilləri ilə yanaşı, büdcə qanunvericiliyində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə maliyyə inzibatçılığının gücləndirilməsinə xidmət edən dəyişikliklərin tətbiqi 2017-ci ilin dövlət büdcəsinin icrasına real zəmin yaradıb. Bu, icra ilə bağlı qeyd edilməli əsas və ilk məqamdır. Büdcənin gəlir və xərc parametrlərinə gəldikdə isə, ümumi meyilləri qeyd edim. İlk olaraq gəlirlər barədə. 2017-ci ildə dövlət büdcəsinin gəlirləri əvvəlki illə müqayisədə çox olsa da, son illərdə ilk dəfə olaraq kəsirlə icra edilib. Gəlirlərin tərkibində əsas məqam isə fiziki şəxslərin gəlir vergisi və əlavə dəyər vergisi üzrə gəlirlərin mümkün potensial bazasının mövcud olmasına, bu bazanın mövcud statistik hesabatlarla təsdiqlənməsinə baxmayaraq, həmin gəlir mənbələrinin tam təmin edilməməsidir. Xərclərə gəldikdə isə, büdcə qanunvericiliyinə yuxarıda qeyd etdiyim istiqamətlərdə dəyişikliklərin olunması əsas təsirini göstərib. Belə ki, hesabat dövrü xərclərin rüblər üzrə təsdiq edilmiş bölgüsünə uyğun icra olunmasına nəzarətin təmin edilməsi ilə xarakterizə oluna bilər.

**–Dövlət borcu büdcənin həm layihəsi, həm də icrası ilə bağlı müzakirələrin aparıldığı dövrdə aktual məsələlərdən biri olaraq qalır. Mətbuatda dövlət borcu ilə bağlı bir sıra ekspertlər tərəfindən müxtəlif fikirlər səsləndirilir.**

–Sizinlə razıyam. Hesablama Palatasının hazırladığı Rəyin əsas informasiya mənbəyini büdcənin əsas parametrləri, eləcə də dövlət borcu barədə məlumatları özündə cəmləşdirən sənədlər, o cümlədən "Büdcə zərfi" və hesabatlar təşkil edir. Qeyd edək ki, uzunmüddətli dövrü əhatə edən dövlət təminatlı qiymətli kağızların buraxılması dövlət zəmanətli daxili borc məbləğinin həcminin artmasına şərait yaratsa da, 2017-ci ildə əvvəlki ildə olduğu kimi, Hesablama Palatasına təqdim edilmiş məlumatlarda daxili dövlət borcunun tərkibində şərti öhdəliklər kimi müəyyən hissə təsdiq edilib. Zəmanət müddətinin uzunmüddətli dövrü əhatə etməsi baxımından həmin vəsaitin tam məbləğdə dövlət borcuna daxil edilməsi "dövlət borcu" anlayışının mahiyyətinə uyğun deyil. İkinci tərəfdən isə, beynəlxalq təcrübədə təşəkkül tapmış qaydalara uyğun olaraq dövlət zəmanətli uzunmüddətli borc öhdəliklərinin borcun növündən asılı olaraq dövlət borcunun uçotunda şərti öhdəlik kimi nəzərə alınması məqsədəuyğundur.

**–Deməli, dövlət borcunun məbləğinə təsir edən digər məqamlardan biri də şərti öhdəliklə bağlıdır. Ümumiyyətlə, şərti öhdəliklərin dövlət borcunun uçotunda nəzərə alınması ilə bağlı beynəlxalq təcrübə necədir?**

–İstər Beynəlxalq Valyuta Fondu (BVF), istərsə də digər maliyyə institutları tərəfindən hazırlanan metodoloji sənədlərdə şərti öhdəlik (contingent liabilities) anlayışına rast gəlmək olar. Şərti öhdəlik bir sıra səbəblərdən yarana bilər. Lakin beynəlxalq maliyyə institutları tərəfindən hazırlanan metodoloji sənədlər heç də bütün şərti öhdəliklərin uçota alınmasını zəruri hesab etmir. Beynəlxalq Valyuta Fondu iki mühüm sənədində - Dövlət Maliyyə Statistikası Təlimatında (GFSM) və Xarici Borcun Statistikası Qaydalarında (EDSG) şərti öhdəlikləri bir qayda olaraq iki qrupa bölür: birbaşa aydın olan (explicit contingent liabilities) və birbaşa aydın olmayan (implicit contingent liabilities). Lakin uzun müddət statistik uçotla bağlı hazırlanan qaydaların böyük əksəriyyətində, ümumiyyətlə, şərti öhdəliklər qeydiyyatı aparılmırdı. Qeyd edilən şəraitdə əsas meyar kredit risklərinin qiymətləndirilməsidir. Şərti öhdəliklərin müəyyənləşdirilməsində dövri amil nəzərə alınaraq kredit risklərinin qiymətləndirilməsi əsas şərtdir. Maliyyə vəsaitlərinin növündən və xarakterindən asılı olaraq qeyri-standart birdəfəlik öhdəliklər şərti öhdəlik kimi tanınsa da, borcun uçotunda yer almır. Bu sıraya dövri amil nəzərə alınaraq kredit risklərinin qiymətləndirilməsi mümkün olmayan (əsasən birbaşa aydın olmayan) şərti öhdəliklər aid edilir.

**–Ümumiləşmə apararaq, ölkəmizdə dövlət borcunun məbləğinin ümumi iqtisadi vəziyyətə təsiri ilə bağlı nələri qeyd etmək olar?**

–Borc dayanıqlılığının təmin edilməsi bütün ölkələr üzrə fiskal dayanıqlılığın təmin edilməsində əsas şərtdir. Beynəlxalq Valyuta Fondunun və digər maliyyə institutlarının tövsiyələrinə əsasən, inkişaf etməkdə olan ölkələrin dövlət borcunun ümumi daxili məhsula nisbətlərinin müvafiq hədləri qeyd edilsə də, nəticə etibarilə hər bir ölkə üzrə fərdi yanaşılmaqla və digər makroiqtisadi göstəricilər, məsələn, təbii ehtiyatlar, idxal-ixrac əməliyyatları, vergi göstəriciləri, valyuta ehtiyatları, borclanma limitləri və digər göstəricilər nəzərə alınmaqla qiymətləndirilir. Təhlil göstərir ki, ümumilikdə bu istiqamətdə ölkəmizin mövqeyi qənaətbəxşdir və dövlətimizin başçısının da qeyd etdiyi kimi, dünya miqyasında biz xarici borcun səviyyəsinə görə müsbət mənada qabaqcıl ölkələrdənik. Qanunvericiliklə müəyyən edilmiş Rəyin hazırlanması üçün Hesablama Palatasına dövlət büdcəsi ilə bağlı təqdim olunmuş məlumatlara əsasən, ölkə üzrə mövcud borc portfelində xarici valyutada olan borc öhdəliklərinin payı böyükdür. Bunun əsas səbəbi daxili maliyyə bazarının borclanma tələbini ödəmək potensialına malik olmaması və üzv olduğumuz maliyyə-kredit qurumlarından inkişaf məqsədilə kreditlərin cəlb edilməsidir. Lakin Azərbaycan Respublikasının neft-qaz gəlirlərinin, eləcə də ehtiyat aktivlərinin əksəriyyətinin ABŞ dollarında olması valyutada öhdəlik-aktiv balansının saxlandığını və xarici valyuta riskinin aşağı olmasını deməyə əsas verir. Dövlət büdcəsi ilə bağlı hesabat və izahatlara əsasən dövlət borcunun orta ödəniş müddəti təqribən 5,9 il qəbul edilmişdir ki, bu müddət riski üzrə meyarlarla müqayisədə məqbuldur.

**–Vüqar müəllim, yenidən baxılmış dövlət büdcəsinin də müzakirələri davam edir. Dövlət büdcəsi ilə bağlı Qanuna dəyişikliklər edilməsi üçün hansı şərtlər zəruridir?**

–Təbii resurslarla zəngin olan ölkələr üçün həmin resursun qiymətində mümkün volatillik büdcənin planlaşdırılması və icrasına təsirsiz ötüşmür. Azərbaycan Respublikasında da neft amili iqtisadi sistemdə böyük təsirə malikdir. Dünya bazarlarında neftin qiymətinin dəyişməsi səbəbindən dövlət büdcəsinə təkrar baxmaq zərurəti yaranır. Cari ilin may ayının ortasında 2014-cü ilin noyabr ayından etibarən neftin qiyməti ilk dəfə 80 ABŞ dollarına çatıb, 2018-ci ilin ötən aylarında 1 barrel neftin dünya bazarlarında qiyməti 60 ABŞ dollarından aşağı olmayıb. Ölkədə makrofiskal bazanın gücləndirilməsi dövlət maliyyəsi sahəsində aparılan islahatların hədəfləri ilə üst-üstə düşməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu amillər 2018-ci ilin dövlət büdcəsinə yenidən baxılması üçün əsas iqtisadi şəraiti formalaşdırıb. Cari ildə iqtisadiyyatı təbii resursdan asılı olan bir neçə ölkədə də dövlət büdcəsinə əlavə və dəyişikliklər edilib. Qeyd edim ki, Qazaxıstan Respublikası, Rusiya Federasiyası da artıq bu dəyişikliklər barədə qərar qəbul edib.

**–Dövlət büdcəsi ilə bağlı qanun layihəsi ilə yanaşı, "Büdcə sistemi haqqında" Qanuna dəyişikliklər Milli Məclis tərəfindən müzakirə ediləcək. Bu dəyişikliklər barədə məlumat verməyinizi xahiş edirik.**

–Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il 16 mart və 6 dekabr tarixli "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə, həmçinin 2017-ci ilin dövlət büdcəsinin tətbiq edilməsi haqqında Fərmanda ölkəmizin maliyyə sistemində institusional bazanın təkmilləşdirilməsi ilə bağlı Orta Müddətli Xərclər Çərçivəsi, nəticə əsaslı büdcə, Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsi üçün "qızıl qayda"nın və dövlət borcunun idarə edilməsi üzrə orta və uzunmüddətli strategiyanın hazırlanması istiqamətində konkret tapşırıqlar verilib. Burada əsas məqsəd makrofiskal çərçivənin möhkəmləndirilməsi və büdcə risklərinin azaldılmasıdır. Büdcə risklərinin azaldılması fiskal dayanıqlılığın gücləndirilməsi və büdcə göstəricilərinin uzunmüddətli dövrə balanslaşdırılması üçün şərtdir. İqtisadiyyatın təbii resursdan asılılığı baxımından beynəlxalq təcrübədə bir sıra göstəricilər tətbiq edilir. Bu sıraya qeyri-resurs (qeyri-neft) büdcə balansı, dəyişməz real gəlir (xərc) prinsipi əsasında hesablanan nisbət, məcmu büdcə balansı, xərc qaydası, struktur büdcə balansı və s. göstəricilər aid edilir. Qanun layihəsinə təklif edilən müvafiq əlavə və dəyişikliklər də qeyd olunan sənədlərin məntiqi davamı kimi çıxış edir. Eyni zamanda, adekvat göstəricilərin hesablanılması və mövcud mənzərənin dəqiq təsviri, son nəticədə isə, növbəti illərdə əsaslı büdcə proqnozlarının tərtibi üçün müvafiq qanunvericilikdə anlayışların daha da konkretləşdirilməsi vacibdir. Nəzərdə tutulan dəyişikliklər, ümumiyyətlə, büdcə qanunvericiliyinin əsasını təşkil edən "Büdcə sistemi haqqında" Qanun tam mənada dünyada, eləcə də ölkə iqtisadiyyatında baş verə biləcək proseslərə adekvat zəmini formalaşdırmaq funksiyası daşıyır.

**–Bu məqamlar Hesablama Palatasının informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılmasını ön plana çıxarır.**

–Dövlətimizin başçısının təsdiq etdiyi Qaydaların tətbiqi, informasiya bazalarının genişlənməsi Hesablama Palatası qarşısında bacarıqların artırılması, yeni texnologiyaların tətbiq imkanlarının reallaşdırılmasını, ilk növbədə, zəruri edir. Başqa sözlə, bizim fəaliyyətimizdə datafikasiya daha geniş yer almağa başlayır. "Datafikasiya" 2013-cü ildə yaranmış termindir və ölkəmiz üçün də yeni bir meyildir. Bu terminlə informasiya texnologiyaları sahəsində aparılan fəaliyyət ifadə olunur. Datafikasiya hazırda həyatımızın bir çox aspektini kompüterləşdirilmiş məlumatlara çevirərək dəyərin yeni formalarını yaradan müasir texnoloji meyil anlamına gəlir. Hesablama Palatası da mütərəqqi texnologiyaların tətbiqi sahəsində bu meylin bir iştirakçısıdır. Bu yeni çağırışların formalaşdırdığı imkanların reallaşdırılması və tələblərin ödənilməsi məqsədilə Hesablama Palatasının Strateji İnkişaf Planında informasiya texnologiyalarının peşəkar fəaliyyətin həyata keçirilməsində geniş tətbiqi nəzərdə tutulub. Bundan əlavə, ölkə daxilində aparılan intensiv elektronlaşma nəticəsində formalaşan informasiya sistemlərinin və onların məlumat bazalarının dayanıqlılığı ilə bağlı əminliyin yaradılması gerçəkləşdirilən audit fəaliyyətlərinin əsas predmetlərindən birinə çevrilib. Bu istiqamətdə səylərin səmərəliliyini optimal səviyyədə saxlamaq üçün qabaqcıl beynəlxalq nəzəri və praktiki biliklər diqqətdə saxlanılır.

**–Qeyd edilən bütün amillər Hesablama Palatasının nəzarət fəaliyyətinin təkmilləşdirilməsini, bu isə öz növbəsində geniş məlumat bazasının emalını tələb edir. Qeyd edilən fəaliyyətlə bağlı hansı yeni yanaşmalar mövcuddur?**

–Ümumən, kənar dövlət maliyyə nəzarətini həyata keçirən qurumlar da informasiya texnologiyalarının fəal istifadəçiləridir və bu baxımdan CAATs-ın (Computer Assisted Audit Techniques - Kompüter əsaslı audit metodları) tətbiqi xüsusilə maraqlıdır. CAATs informasiya texnologiyaları vasitələridir və məlumatları, yaxud informasiya sistemlərinin özlərini qiymətləndirmək üçün müxtəlif avtomatlaşmış testlər aparmağa kömək edir. Qeyd edilməlidir ki, məhz rəqəmsallaşmanın cari əhatəliliyi və CAATs audit olunan qurumun mühüm həcmdə məlumatını, əksər hallarda 100 faiz səviyyəsində emal və təhlil olunmasını mümkün edir.

**–Son sualımız aparılan yoxlamaların nəticələrinin ictimailəşdirilməsi ilə bağlıdır.**

–Nəzarət nəticə və şəffaflıq tələb edir. Bizim nəzarət fəaliyyətimizin məqsədi hesabatlılığın gücləndirilməsidir, bu isə maliyyə inzibatçılığının möhkəmləndirilməsinə xidmət edir. Şəffaflıq təmin edilmədikdə isə, həmin məqsədlərə nail olmaq mümkün deyil. Bu baxımdan Hesablama Palatası başa çatdırdığı tədbirlərin nəticələri ilə bağlı məlumatları ictimailəşdirir və biz bunu müxtəlif metodlarla həyata keçiririk. Bizim rəsmi internet səhifəmizdə başa çatdırılmış auditlərlə bağlı məlumatlar əldə etmək mümkündür. 2017-ci ildən nəşrinə başladığımız "Dövlət auditi" bülletenində bəzi tədbirlərlə bağlı daha ətraflı məlumatlar veririk. Hesablama Palatası daxil olmuş bütün sorğuları vaxtında və ətraflı cavablandırır. Dövlət büdcəsinin, eyni zamanda, Dövlət Neft Fondunun büdcəsinin 6 ay üzrə icrası ilə bağlı məlumatlar da hazırlanaraq ictimaiyyətə təqdim edilir. İl ərzində fəaliyyətimizlə bağlı daha ətraflı məlumatların çatdırılması üçün hesabatlarımızın da strukturunun və məzmununun ildən-ilə təkmilləşdirilməsinə çalışırıq. Hazırladığımız bütün sənədləri - rəyləri və hesabatları tam məzmunda internet səhifəmizdən əldə etmək mümkündür. Xüsusilə qeyd etmək istəyirəm ki, icra edilmiş dövlət büdcəsi ilə bağlı bu büdcənin icrasını təmin edən orqanlar üzrə daha ətraflı məlumatları əks etdirən əlavə hesabat hazırlamaq niyyətindəyik. Burada məqsədimiz şəffaflığın və hesabatlılığın gücləndirilməsi ilə yanaşı, növbəti ilin dövlət büdcəsinin layihəsinin müzakirələrində əlavə məlumatların təqdim edilməsidir. Atdığımız bu addımlar dövlətimizin başçısının maliyyə sektorunda şəffaflığın təmin edilməsi və Hesablama Palatasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı verdiyi tapşırıqların icrasını layiqincə təmin etmək məqsədini daşıyır. Biz Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlara öz töhfəmizi vermək ümidindəyik.

**AZƏRTAC**

# Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti Nərgiz Paşayeva "Birlik ulduzları" mükafatı ilə təltif edilib





**İyunun 19-20-də Qazaxıstanın paytaxtı Astanada, Qazaxıstan Milli Muzeyində MDB iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının "MDB-də dialoq - XXI əsrdə humanitar əməkdaşlığın perspektivləri" mövzusunda XIII Forumu keçirilib.**

MDB iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının Forumu Müstəqil Dövlətlər Birliyi məkanında ən iri illik humanitar tədbirdir. MDB ölkələrinin mədəni, elmi və təhsil elitası forumlarda görüşməklə birbaşa peşəkar ünsiyyət və təhsil, elm, ədəbiyyat, təsviri incəsənət və Birlikdə mədəniyyətlərarası qarşılıqlı əlaqənin digər sahələrində aktual, tələbat duyulan layihələrin dəstəklənməsi üçün nadir imkana malik olur.

AZƏRTAC xəbər verir ki, Forumda Azərbaycanı geniş nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Nərgiz Paşayeva, AMEA-nın vitse-prezidenti, M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyev, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Azərbaycanın Xalq Artisti Murad Adıgözəlzadə, digər elm və incəsənət xadimləri daxil idi.

Forumun açılışında Azərbaycan ilə yanaşı, Belarus, Qazaxıstan, Rusiya, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və digər ölkələrdən 200-ə yaxın nümayəndə iştirak edib. Qazaxıstanın Dövlət katibi Gülşara Abdıkalıkova Prezident Nursultan Nazarbayevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub. Dövlət katibi vurğulayıb ki, belə forumlar çərçivəsində humanitar əməkdaşlıq ölkələr arasında mehriban qonşuluq siyasətini daha da möhkəmləndirir.

Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub və tədbirin işinə uğurlar arzulayıb.

Sonra 2017-ci il üçün "Birlik ulduzları" mükafatı laureatlarının təltif edilməsi mərasimi keçirilib. Laureatlar sırasında M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, professor Nərgiz Paşayeva, görkəmli rusiyalı musiqiçi, alt alətində ifaçı, dirijor, məşhur pedaqoq və ictimai xadim, SSRİ Xalq Artisti Yuri Başmet, Qazax Milli incəsənət Universitetinin rektoru, ictimai xadim, Qazaxıstan Respublikasının Xalq Artisti Ayman Musaxacayeva, Moldova Elmlər Akademiyasının həqiqi üzvü, Milli Kosmik Texnologiyalar Mərkəzinin direktoru, Moldova Respublikasının elm və texnika sahəsində Dövlət Mükafatı laureatı İon Bostan, Qırğızıstan Milli Elmlər Akademiyasının Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru, akademik Abdıldajan Akmataliyev, Tacikistan Respublikasının Xalq Şairi, Yazıçılar İttifaqının sədri Kosim Nizom, Belarus Respublikasının Əməkdar İdman Ustası, Beynəlxalq Biatlon Federasiyasının İdmançılar Komitəsinin üzvü, dördqat Olimpiya çempionu Darya Domraçeva da var.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Nərgiz Paşayeva elmi və humanitar fəaliyyətinə görə "Birlik ulduzları" mükafatını almaq üçün səhnəyə **dəvət edilib. Professor Nərgiz Paşayeva onun fəaliyyətinə verilmiş yüksək qiymətə görə Forumun iştirakçılarına və təşkilatçılarına minnətdarlığını bildirərək deyib:**

-XIII Humanitar Forumun iştirakçılarını ürəkdən salamlayıram.

Mənə "Birlik ulduzları" mükafatı laureatı olmaq və sizin aranızda olmaq xoşbəxtliyi nəsib olub. Şadam ki, dostluq tellərini möhkəmləndirərək biz müasir dünyada bir-biri ilə qarşılıqlı anlaşmanın necə vacib olduğunu başa düşürük. Hər dəfə bu cür imkan düşəndə biz biliklərin, ideyaların, mədəni təcrübənin, gələcək planlarımızın və ümidlərimizin mübadiləsinə kömək etməliyik. Məhz bu əbədi platformalar bizi hər şeydən daha çox əlaqələndirə bilər.

Bu gün biz dünya mədəni irsinin və universal dəyərlərin başı üstünü alan yeni, gözlənilməz təhlükələri tez-tez hiss edir və görürük. Gəlin yada salaq ki, IX, X, XI, XII əsrlər müsəlman mədəniyyəti və elminin ən parlaq dövrü olub. Lakin Şərqdən və Qərbdən başlanan müharibələr, yürüşlər, basqınlar böyük tələfata səbəb olub, çox şeyi birdəfəlik məhv edib. XV əsrdə Qranadada o dövrün böyük sayda sufi şeirləri yandırılıb.

Hamı başa düşmək və qəbul etmək istəyirmi ki, əxlaqi-etik, humanitar-mənəvi dəyərlər və oriyentirlər olmadan yaradıcılıq, ideya azadlığı, elmi fikrin tərəqqisi davamlı inkişaf edə bilməz.

Tarixən yaradıcılıqda həqiqətin öz abstrakt, bəzən tam fərdi, bədii ifadəsi olur. Elmdə həqiqətə və şöhrətə gedən yol uzundur. İllərboyu gərgin əmək, axtarışlar, təcrübələr olmasa, alimlər, yəqin ki, tanınmağın və elmi uğurun sevincini duya bilməzlər. Elmdə həqiqəti aşkar etmək azdır, onu dönə-dönə yoxlamaq, sübut etmək və illüziyalardan qorumaq lazımdır. Xatırlayaq ki, böyüklər də səhvə yol veriblər. Ptolomey Yerin hərəkətsiz olmasına şübhə etmirdi.

Kopernik, Eynşteyn, Tolstoy kimi doğulmaq, Nizami kimi "Xəmsə" yazmaq, Nəsimi kimi yaradıcı ideyalar naminə tərki-dünya olmaq hər kəsə nəsib olmur. Lakin biz hamımız istəsək də, istəməsək də bu böyük insanların - harmoniyanın və biliklərin gözəlliyini yaradanların bütün bəşəriyyətə qoyub getdikləri o böyük nurun bir zərrəsini daşıyırıq. Məhz onlar, onların ölməz irsi bizim yolumuzda sönməz ulduzlardır.

Biz isə, öz növbəmizdə, o ulduzların işıqlı yolu ilə getməyə çalışırıq və bəzən bu işığı əks etdirməyə ehtiyatlı cəhdlər edirik. Bununla da Göy və Yer arasında öz borcumuzu yerinə yetirir və dərk edirik ki, Həqiqətin müəllifi yoxdur, çünki müəllif o özüdür.

Əgər biz öz yolumuzda müəyyən uğur qazanmışıqsa, onda, ilk növbədə, müəllimlərimizə və ustadlarımıza, valideynlərimizə, doğmalarımıza və yaxınlarımıza, həmkarlarımıza borcluyuq. Öz uğurlarımıza görə məhz onlara borcluyuq. Mənə verilmiş yüksək mükafata görə səmimi təşəkkürümü bildirirəm. Sizin icazənizlə, pul mükafatını M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mənim rəhbərlik etdiyim Bakı filialının tələbələrinin xeyirinə istifadə etmək istəyirəm. Mən bu mükafatı bizim ali məktəbin ən yaxşı tələbəsinə təqaüd üçün ayırmaq niyyətindəyəm.

Bu yaxınlarda Azərbaycanda tariximizin ən parlaq səhifələrindən birini təntənəli şəkildə qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması gününün yüz illiyini bayram etdi. Azərbaycan xalqı müsəlman Şərqində ilk azad və demokratik respublika qurub. Azərbaycanlılar bir əsr ərzində tarixi kataklizmlərə, repressiyalara, edamlara, təqiblərə və təhdidlərə rəğmən bu böyük hadisəni daim yadda saxlayıb və respublikamızın banilərinə, o dövrün böyük nümayəndələrinə ehtiram bəsləyiblər. Azərbaycan özünün demokratik və respublikaçılıq ənənələri ilə həmişə fəxr edib və bu gün də fəxr edir.

Məqsədi ictimai rifaha xidmət etmək və humanitar əlaqələri möhkəmlətmək olan bu böyük mənalı tədbirin bütün təşkilatçılarına bir daha təşəkkürümü bildirirəm. Təltif edilənlərin hamısını, bizim bütün komandamızı təbrik edirəm, sizin hər birinizə ruh yüksəkliyi, möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə uğurlar arzulayıram!

Əl-Fərabinin böyük ömür yolunun başlandığı Qazaxıstan Torpağına, bu gözəl Yerdə yaşayan bütün insanlara ehtiramla təzim edirəm. Qazaxıstan xalqına xoşbəxtlik arzu edirəm. Şərqdə belə bir məsəl var: xoşbəxt olmaq istəyirsənsə, ol.

Sağ olun, yeni görüşlərədək!

Qazaxıstanın mədəniyyət və idman naziri Arıstanbek Muhamediulı Forumda çıxış edərək bildirib ki, MDB iştirakçısı olan ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun keçirdiyi forumlarda mədəniyyət, təhsil, elm, informasiya, idman və turizm sahələrində ən vacib məsələlər müzakirə edilir. Nazir MDB çərçivəsində elmi və humanitar əməkdaşlıqda Azərbaycanın rolunu xüsusi qeyd edib və akademik Nərgiz Paşayevanın bütövlükdə dünya elminə, mədəniyyətinə, sivilizasiyalararası dialoqun inkişafına verdiyi böyük töhfəyə görə ona minnətdarlığını bildirib. O deyib: "Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Nərgiz xanım da qlobal miqyaslı şəxsiyyətdir. Biz bunu böyük fəxr hissi ilə söyləyirik. Nərgiz xanımın "Birlik ulduzları" mükafatı ilə təltif olunması bir daha təsdiqləyir ki, onun həm Azərbaycan elminin, mədəniyyətinin, həm də dünya sivilizasiyasının inkişafında böyük xidmətləri var. Akademik Nərgiz Paşayevanın fəaliyyətini qiymətləndirmək bizim üçün böyük şərəfdir. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan elmi, mədəniyyəti və təhsili yüksək səviyyədədir".

MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHAF) İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu müasir dünyada belə forumların keçirilməsinin əhəmiyyətindən danışaraq bildirib ki, ümumi qloballaşma və texnologiyaların sürətli inkişafı fonunda humanitar əməkdaşlıq məsələləri daim diqqət mərkəzində olmalıdır. Bu baxımdan birgə mədəni layihələrin həyata keçirilməsi müntəzəm xarakter alıb. Postsovet məkanında humanitar əməkdaşlığın miqyasının genişləndirilməsi modeli sağlam düşüncəli insanların diqqət mərkəzindədir. Diplomat MDB iştirakçısı olan ölkələrin yaradıcı və elmi ziyalılarının Forumunun həyata keçirdiyi layihələr barədə də ətraflı məlumat verib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Forumun işinə uğurlar arzulayaraq deyib ki, bu cür tədbirlər Birlik ölkələri arasında elm və təhsil sahəsində əlaqələrin inkişafı, təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır. O vurğulayıb ki, bu baxımdan Astana Forumunu elm xadimlərinin, yaradıcı ziyalıların ünsiyyət platforması adlandırmaq olar.

Qeyd edək ki, beynəlxalq "Birlik ulduzları" mükafatı 2009-cu ildə MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilib. Mükafat elm və təhsil, mədəniyyət və incəsənət, humanitar fəaliyyət sahələrində nailiyyətlərə görə hər respublikadan bir nümayəndəyə verilir. Laureatların irəli sürülməsi prosesi MDB ölkələrindən olan görkəmli alimlərin, dövlət və ictimai xadimlərin daxil olduğu beynəlxalq münsiflər heyəti tərəfindən həyata keçirilir.

Budəfəki Forum Qazaxıstan Mədəniyyət və İdman Nazirliyinin və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun təşkilatı dəstəyi ilə keçirilib.

Astanada keçirilən budəfəki Forumda Belarus Respublikasının Brest şəhəri 2019-cu il üçün MDB-nin mədəniyyət paytaxtı elan edilib.

**AZƏRTAC**

# Beynəlxalq konfransın iştirakçıları Azərbaycanda həyata keçirilən ailə, qadın və uşaq siyasəti barədə məlumatlandırılıb

**İyunun 21-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Hicran Hüseynova qonaqlara Dövlət Komitəsinin fəaliyyəti, Azərbaycanda ailə, qadın və uşaq siyasəti sahəsində görülən mühüm işlər barədə məlumat verib.



Bildirilib ki, Azərbaycanda qadın siyasəti dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Lakin komitə həm də uşaq problemləri ilə bağlı məsələlərlə məşğul olur. Ölkəmizdə uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, onların şəxsiyyət kimi formalaşması əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl işlər aparılır, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, konvensiyalara qoşulur. Hazırda Prezident İlham Əliyev Ulu Öndərin bu istiqamətdə siyasi xəttini uğurla davam etdirir. Bu işdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə görülən işlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Heydər Əliyev Fondu uşaqların problemlərinə böyük diqqətlə yanaşır, onların hərtərəfli inkişafı üçün önəmli layihələr həyata keçirir. Uşaqların öz hüquqlarına dair qərarların qəbul olunmasında iştirakını təmin etmək, onlara problemlərinin həlli ilə bağlı təşəbbüslər irəli sürmək və təkliflər vermək imkanı yaratmaq, ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək məqsədilə hər üç ildən bir Azərbaycan Uşaqlarının Ümumrespublika forumları keçirilir.

Diqqətə çatdırılıb ki, AQUPDK-nın bir çox dövlət qurumları, eləcə də Ombudsman Aparatı, həmçinin beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlığı qurulub və inkişaf etdirilir.

Görüşdə iştirak edən ombudsman Elmira Süleymanova bildirib ki, ölkəmizdə insan hüquqlarının qorunması və onların icra mexanizmlərinə xüsusi diqqət yetirilir. Azərbaycan insan hüquqları ilə bağlı öhdəliklərinin yerinə yetirilməsinə xüsusi əhəmiyyət verir.

Elmira Süleymanova ailə, qadın və uşaq problemlərinin həlli istiqamətində ölkəmizdə həyata keçirilən layihələrin önəmini qeyd edib, xüsusilə AQUPDK-nın bu istiqamətdə səmərəli fəaliyyətindən danışıb. O, Ombudsman İnstitutunun Dövlət Komitəsi ilə sıx əməkdaşlıq qurduğunu diqqətə çatdırıb.

Sonda qonaqların sualları cavablandırılıb.

**AZƏRTAC**

# Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının Bəyannaməsi qəbul edilib

**İyunun 21-də "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova və Pakistanın qadınların təcavüz hallarından müdafiəsi üzrə federal müvəkkili Kaşmala Tariq çıxış edərək konfransda olduqca məhsuldar müzakirələrin aparıldığını, faydalı təkliflərin irəli sürüldüyünü diqqətə çatdırıblar. Bildirilib ki, ayrı-seçkiliyin bütün formaları insan hüquqlarının pozulmasına səbəb olur. Hüquq bərabərliyi insan hüquqlarının ali prinsipi hesab edilməlidir. Hüquqi, demokratik və vətəndaş cəmiyyəti quruculuğu yolunu tutan dövlətlərdə insan hüquq və azadlıqları milli prioritet məsələdir.

Konfransın yekununda Bəyannamə qəbul edilib.

Sənəddə bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinin təbliğinə, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən buna əməl edilməsinə dəstəyin verilməsi, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün iqtisadi və hüquqi inkişafın dəstəklənməsi, ədalətli bir dünya üçün davamlı tərəqqinin, sosial inkişafın və ətraf mühitin qorunmasının təşviqinin və heç kəsin bu inkişafdan kənarda qalmaması üçün birgə fəaliyyətin zəruriliyi, ombudsmanların, milli insan hüquqları təsisatlarının bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərinə əməl edilməsi məqsədilə monitorinq və qiymətləndirmənin aparılmasında, vətəndaş cəmiyyətinin bu prinsiplərin təbliği prosesində yaxından iştirakının təşviqinin, qeyri-hökumət təşkilatlarını, kütləvi informasiya vasitələrini cəlb etməklə birgə tədbirlərin keçirilməsinin önəmi kimi məsələlər öz əksini tapıb.

Həmçinin Bəyannamədə universal və regional beynəlxalq təşkilatlarla, BMT və onun ixtisaslaşdırılmış təsisatları ilə, Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər təşkilatlarla, həmçinin milli insan hüquqları qurumları, saziş qurumları ilə əməkdaşlığın genişləndirilməsi və hüquq bərabərliyinin təmin olunmasına yönəlmiş birgə layihələrin təşviq olunması, hüquqların bərabər təmininə təhlükə yaradan halların, o cümlədən müharibə, hərbi münaqişə, soyqırımı, terrorizm, ksenofobiya və islamofobiya hallarının qarşısının alınması, onların dinc yolla həll olunması və nəticələrinin aradan qaldırılmasına yönəlmiş çevik proqramların hazırlanması və dövlət tərəfindən həyata keçirilən tədbirlərə, beynəlxalq təşəbbüslərə dəstək verməklə milli insan hüquqları təsisatlarının, vətəndaş cəmiyyətinin, bütün əhali qruplarının imkanlarının səfərbər edilməsi, əsas insan hüquqlarının, vətəndaş, siyasi, iqtisadi, sosial, mədəni, o cümlədən kollektiv hüquqların hər hansı bir əlamətə görə heç bir ayrı-seçkiliyə yol vermədən hərtərəfli təmin olunması sahəsində fəaliyyətin əlaqələndirilməsi məsələləri də yer alıb.

**AZƏRTAC**

# İnsanların sağlamlığı keşiyində

**Dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində bütün sahələrdə əldə olunan uğurlar insanların fəal həyat mövqeyinə, sağlamlığına, rifah halının günbəgün yaxşılaşmasına şərait yaratmışdır.**

Son illər ölkə səhiyyəsində qazanılan saysız-hesabsız nailiyyətlər də göstərilən dövlət qayğısının nəticəsidir.

Müstəqillik illərində səhiyyənin inkişafı üçün xalqımızın ümummilli lideri Heydər Əliyev onlarca fərman və sərəncamlar imzalamış, səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə möhkəm hüquqi zəmin yaratmışdır.

Azərbaycan səhiyyəsi Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yüksək səviyyəyə qaldırılmışdır. Bu gün Azərbaycan səhiyyəsinə diqqət və gündəlik qayğı göstərən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin paytaxtında və istərsə də bölgələrimizdə tibb ocaqlarının dünya standartları baxımından qurulması, tibb müəssisələrinin tikilməsi, ən müasir tibb avadanlıqları ilə bu tibb ocaqlarının təmin olunması istiqamətində olduqca böyük işlərin həyata keçirilməsinə nail olunmuşdur.

Dövlətimizin səhiyyə sahəsinə göstərdiyi diqqətin sayəsində mübaliğəsiz demək mümkündür ki, ölkəmizin səhiyyəsi heç də dünyanın qabaqcıl səhiyyə ocaqlarından geri qalmır. Azərbaycan Prezidenti cənab İlham Əliyev bu haqda danışarkən demişdir: "...Azərbaycanın səhiyyə sistemində aparılan islahatlar, görülən işlər, həyata keçirilən tədbirlər dünya səviyyəsindədir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik". Ölkə başçısı onu da qeyd etmişdir ki, həkimlər gözəl xəstəxanalarda çalışmalıdırlar, insanlarımız sağlam olmalıdır. Bunlara nail olmaq üçün bütün tibb ocaqlarında dünyada mövcud olan ən müasir aparatlar vardır. Texniki təchizat bu gün imkan yaradır ki, əvvəllər ölkəmizdə mümkün olmayan ən çətin cərrahi əməliyyatlar belə peşəkar həkimlər tərəfindən uğurla həyata keçirilir, insanlar respublikamızın tibb ocaqlarında tam şəkildə öz sağlamlıqlarına qovuşurlar.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nda (2014-2018-ci illər) bütün fundamental sahələr kimi, səhiyyə sisteminə də geniş yer ayrılmışdır. Bu sənədə əsasən bölgələrdə insanlara yüksək səviyyədə tibbi xidmətin göstərilməsini təmin edəcək bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmiş - yeni xəstəxanalar, diaqnostika mərkəzləri, poliklinikalar inşa edilmiş, əksər səhiyyə müəssisələrinin yenidən qurulması təmin edilmişdir.

Uzun illər çalışdığım Şamaxı Mərkəzi Rayon Xəstəxanası da dövlət qayğısı sayəsində əsaslı təmir edilmiş, tibbin ən müasir avadanlıqları ilə təmin olunmuşdur.



Ölkə vətəndaşlarının sağlamlığına qayğı və diqqət baxımından Prezident İlham Əliyevin tapşırığına əsasən hər il ölkəmizin şəhər və rayonlarında bütün əhali dövlət hesabına tibbi müayinədən keçirilir. Hətta, ixtisaslaşdırılmış səyyar həkim briqadaları təşkil olunur, müəyyən kateqoriyalı xəstələrin, əlillərin yaşadıqları ünvana getməklə müayinəsi təşkil edilir. Bir məsələni də vurğulamaq istərdim. Fəaliyyət göstərdiyi müddət ərzində Heydər Əliyev Fondunun həyata keçirdiyi səhiyyə layihələrinin əhəmiyyəti də olduqca böyükdür. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr 2004-2018-ci illər ərzində səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən həyata qaytarmışdır.

Sonda səhiyyə işçilərinin peşə bayramı münasibətilə bütün həmkarlarımı təbrik edir, onlara çətin, lakin şərəfli işlərində uzun ömür və cansağlığı arzulayıram.

**Əkbər QƏDİMOV,**
**Şamaxı Mərkəzi Rayon Xəstəxanası Uşaq Xəstəlikləri şöbəsinin müdiri.**

# Əbədi müstəqilliyi təmin edən böyük qayıdış

**Qurtuluş Günü Azərbaycan xalqının və dövlətinin müasir tarixində ən əlamətdar gündür. 1993-cü ilin keşməkeşli iyun günlərindən artıq 25 il ötür. Müstəqil respublikamızın mövcudluğu, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması, bu gün əldə etdiyimiz möhtəşəm uğurların başlanğıcı məhz həmin tarixi gündən qoyulub.**

1993-cü ilin 15 iyunu - xalqın təkidli tələbi və xahişi ilə ümummilli liderimiz Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi, müasir tariximizə böyük qayıdış - Milli Qurtuluş Günü kimi əbədi yazıldı. 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsindən alnıaçıq çıxdığı gündür. Bu tarixi yaradan, xalqa nicat yolunu göstərən isə Azərbaycanın müstəqilliyinin qorunmasında və möhkəmlənməsində, sonrakı inkişafı və gələcək taleyində müstəsna rol oynayan ulu öndər Heydər Əliyevdir. Yaddaşımıza əbədi həkk olunmuş Qurtuluş bayramı Azərbaycanın hər yerində dahi lider, dünya miqyaslı siyasətçi Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, xalqı qarşısında göstərdiyi təmənnasız və fədakar xidmətinə böyük minnətdarlıq hissi ilə qeyd olunur. Bu gün Azərbaycan dövlətçiliyinin xilası günüdür, xalqımızın əmin-amanlığı, sabitlik və inkişafa, demokratiyaya qovuşduğu böyük tarixi gündür. Təsadüfü deyil ki, 15 iyun - Qurtuluş Günü Milli Məclisin qərarı ilə 1997-ci il iyunun 27-də rəsmiləşdirildi. Həmin tarixi qərarda deyilirdi: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi".

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu hər iki mərhələdə eyni məramla çalışmış, qarşıya qoyduğu hədəflərə yetişmək üçün bütün gücünü səfərbər etmişdir. Məhz bu keyfiyyətləri sayəsində Heydər Əliyev millətə, xalqa rəhbərlik etmək haqqını qazanmışdır. Şəxsiyyət və lider kimi mübarizə miqyasının böyüklüyü ona hələ sağlığında ümummilli liderlik zirvəsini fəth etmək imkanı vermişdi. Dahi Heydər Əliyev bəyan etmişdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, irdə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu həqiqəti dəfələrlə təsdiq edib.

Bu gün müstəqil siyasət yürüdən, dünya arenasında öz siyasi və iqtisadi çəkisinə görə önəmli rol oynayan Azərbaycan dövləti ümummilli liderin şah əsəridir. Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu və banisidir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun əzmlə həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təminatı və yeni iqtisadi kursun müəyyənləşdirilməsi məhz Heydər Əliyevin öz xalqı qarşısındakı əvəzsiz xidmətləridir. Heydər Əliyev nəinki müstəqilliyimizi qoruyub saxladı, həm də onu əbədi və dönməz etdi.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz strateji seçimini və inkişaf yolunu - insan hüquq və azadlıqlarının ali dəyər hesab etdiyi demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçdi və bu məqsədə nail olunması üçün qısa müddətdə dövlət və cəmiyyət həyatının bütün sahələrində köklü islahatlar aparıldı. Ulu öndərimizin banisi olduğu, onun bilavasitə iştirakı ilə ərsəyə gəlmiş və ümumxalq səsverməsi yolu ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk Milli Konstitusiyamız, şübhəsiz ki, bütün bu islahatların istiqamətini müəyyənləşdirmişdir. Bu böyük tarixi, siyasi-hüquqi ali sənəd ulu öndərin gərgin əməyinin bəhrəsi kimi Azərbaycanın müstəqillik yolunda daha inamla addımlamasının, ərazi bütövlüyümüzün, təbii sərvətlərimizin, dinimizin və dilimizin, mədəniyyətimizin və digər dəyərlərimizin, insan və vətəndaş azadlığının, firavanlığın təminatçısıdır. Heydər Əliyevin hakimiyyəti dövründə müstəqil Azərbaycanda həyata keçirilən siyasi və demokratik islahatlar ölkəmizin Avropa Şurası və Qərbin digər siyasi və iqtisadi strukturları ilə fəal əməkdaşlığına şərait yaratmışdır. Təbii ki, bütün bunlar Azərbaycanın Qərbə geniş inteqrasiyasını sürətləndirmiş və mötəbər beynəlxalq təşkilatlarla əməkdaşlığa imkan yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı ən böyük xidmətlərindən biri də yeni neft strategiyasının hazırlanaraq uğurla həyata keçirilməsi olmuşdur. 1994-cü ilin 20 sentyabrında dünyanın ən böyük dövlətlərinin neft şirkətləri ilə "Əsrin müqaviləsi" nin imzalanmasının milli inkişafımızdakı misilsiz əhəmiyyəti bu gün daha qabarıq şəkildə görünür. Ölkəmiz son illər böyük dividendlər gətirən neft strategiyasının əsas mahiyyəti Azərbaycanın malik olduğu təbii sərvətlərindən xalqın rifahı naminə daha uğurlu şəkildə istifadəyə əsalanır. Bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla bərabər, həm də dövlət müstəqilliyinin qorunub saxlanmasına da xidmət edir. Bu müqavilə həm də qeyri-neft sektorunun sürətli inkişafına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına güclü təkan vermişdir. Heydər Əliyevin digər mühüm xidməti isə qədim İpək Yolunun bərpasıdır. Bu qüdrətli şəxsiyyət müasir İpək Yolunu reallaşdırmaqla qarşısında həm tarixi ənənələri yaşatmaq, həm də Azərbaycanın strateji mövqeyini daha da gücləndirmək məqsədi qoymuşdu. İndi bu qlobal layihələrin bəhrəsindən yalnız xalqımız deyil, bütün dünya bəhrələnir. Ümumi daxili məhsulun artım dinamikasına görə dünyanın lider dövlətləri sırasında olan Azərbaycan bu gün bütövlükdə Avropanın enerji təhlükəsizliyində aparıcı mövqeyə malikdir. Ulu öndərin müəllifi olduğu yeni neft strategiyasının məntiqi nəticəsi olan, dünyanın ən böyük mühəndis qurğusu sayılan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da gücləndirmiş, onun xarici investisiyalar üçün açıq və cəlbedici dövlət imicini formalaşdırmışdır.

Dahi öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yenidən qurulması olmuşdur. Onun həyata keçirdiyi nəqliyyat siyasətinin mərkəzində ölkə ərazisindən beynəlxalq və tranzit dəhliz yollarının inkişafı, ən mühümü isə milli nəqliyyat sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası durmuşdur. Azərbaycanın beynəlxalq nəqliyyat sisteminin güclənməsi üçün TRASEKA, Şimal-Cənub Proqramı lahiyələri həyata keçirilib. Məhz Heydər Əliyevin apardığı uğurlu nəqliyyat siyasəti nəticəsində TRASEKA dəhlizi üzrə Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artır.

Ulu öndərin öz xalqı qarşısındakı ən böyük tarixi xidmətlərindən biri də müəyyənləşdirdiyi milli inkişaf kursunu, milli inkişaf strategiyasını özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi varis yetişdirməsidir. Böyük öndər 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi-qtisadi inkişaf kursunu qloballaşan dünyanın tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirir. Cənab İlham Əliyevin ardıcıllıqla Heydər Əliyev inkişaf strategiyasını həyata keçirməsi ilə ölkədə siyasi və iqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkə başçısı kimi fəaliyyətə başlamasından ötən dövr ərzində Azərbaycanda bütün sahələrdə möhtəşəm uğurlar qazanılmış, ölkənin maliyyə imkanları artmış, müasir tələblərə cavab verən infrastruktur yaradılmış, transmilli layihələr uğurla həyata keçirilmiş və əhalinin həyat səviyyəsi davamlı olaraq yüksəlmişdir. 2003-cü ilin oktyabrında keçirilən Prezident seçkilərində biz ölkənin gəncləri olaraq və ulu öndərin təməlini qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən, Heydər Əliyev siyasi məktəbinin ən ali məzunu cənab İlham Əliyevə təşviqat kampaniyasında "İlhamla irəli" devizi altında öz dəstəyini əsirgəməmişdir. Bu gün tam əminliklə, qətiyyətlə deyə bilərik ki, "hər bir azərbaycanlının Prezidenti olacağam" deyən İlham Əliyev bu sözlərə sadiq qalaraq ötən 15 ildə, doğrudan da, hər bir Azərbaycanlının Prezidenti oldu, zamanın çağırışlarına cavab verən realist siyasət yürütdü, ölkəmizin inkişafı naminə fədakarlıqla çalışaraq böyük uğurlara imza atdı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən bəri ötən müddət müasir tariximizə respublikamızın iqtisadi, siyasi və mədəni inkişafının dönüş anı kimi əbədi həkk olunub. Bu dövr ərzində ölkəmiz bütün dünyada ən dinamik, davamlı inkişaf edən müstəqil ölkə kimi tanınıb və dünyaya özünün nadir iqtisadi inkişaf modelini təqdim edibdir. Azərbaycan bölgənin ən güclü iqtisadiyyata malik olan ölkəsinə çevrilib.

Bu gün cənab İlham Əliyevin diqqət və qayğısı ilə ən inkişaf etmiş sahələrdən biri də təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin nəqliyyat sektorudur. Bütün sahələrdə olduğu kimi, yol-nəqliyyat, o cümlədən dəmir yolu sektorunda da genişhəcmli infrastruktur layihələri həyata keçirilmiş, yenidənqurma işləri geniş vüsət almışdır. Hazırda dəmir yolu son 3 ildə özünün ən inkişaf dövrünü yaşayır. Prezidentin tapşırıq və tövsiyələrinə əsasən beynəlxalq əhəmiyyətli layihələr "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi, səmərəli fəaliyyəti sayəsində icra olunur. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri layihəsi uğurla reallaşdırılır. Bu məqsədlə ölkə başçısı xüsusi sərəncam imzalamışdır. Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirəcək bu dəhlizin tam istifadəyə verilməsindən sonra bu dəhliz üzərində yerləşən bütün ölkələrlə ticarət əlaqələrinin möhkəmləndirilməsinə və dəmir yolu daşımalarının həcminin xeyli dərəcədə artmasına imkan yaradacaqdır. Onu da qeyd edim ki, cənab Prezidentin təşəbbüskarı və dəstəkçisi olduğu Azərbaycan tarixində ən önəmli hadisələrdən biri də keçən ilin 30 oktyabrında istifadəyə verilən beynəlxalq əhəmiyyətə malik layihə–Bakı-Tbilisi-Qars dəmir yoludur. Bu dəhliz Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Ələt Dəniz Ticarət limanının bir hissəsinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin, TANAP layihəsinə start verilməsi, Trans-Adriatik boru kəmərinin tikintisi ilə bağlı razılaşmalar bundan sonra da neçə onilliklər ərzində Azərbaycanı çox mühüm və vacib beynəlxalq enerji mərkəzinə çevirəcəkdir. Bu gün Avropa ilə Asiyanın qovuşağında yerləşən Azərbaycanda yol-nəqliyyat, o cümlədən dəmir yolu sahəsində beynəlxalq əhəmiyyətə malik dəhlizlərin reallaşması ölkəmizi bu sahədə həm regionda, həm də dünyada tranzit, logistik mərkəzə çevirəcəkdir.



Ötən 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndər Heydər Əliyevin yolu ilə gedirik və onun strategiyası, yol yeganə düzgün yoldur. Xalq-iqtidar birliyi bütün uğurlarımızın əsasıdır. Təsadüfi deyil ki, 11 aprel növbəti prezident seçkilərində xalqımız yenidən cənab İlham Əliyevə yekdilliklə səs verdi və növbəti 7 il müddətinə Azərbaycan Prezidenti seçdi. Ölkə Prezidenti qeyd etmişdir ki, prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirirəm. Mən həmişə xalqımın dəstəyini hiss edirəm və dəstək mənə güc verir.

Müstəqil Azərbaycanın yaradıcısı və qurucusu kimi dahi öndər Heydər Əliyev xalqımızın qəlbində əbədi yaşayacaq, xalqımız və dövlətimiz qarşısında gördüyü möhtəşəm işlər daim xatırlanacaq, gələcək nəsillərə nümunə olacaqdır.

**Kənan CƏFƏROV,**
**YAP Nəsimi Rayon təşkilatının üzvü.**

## "Milli Qurtuluşdan Zəfərə doğru"



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıdışının 25-ci ildönümü və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş kütləvi vətənpərvərlik bayramı keçirilmişdir.

"Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçirilən kütləvi vətənpərvərlik bayramında Milli Məclisin deputatları Kamran Nəbizadə və Ülviyyə Ağayeva, Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev, sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov və başqaları iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parka gəlib, abidəsi önünə tər gül dəstələri qoyaraq öz dərin ehtiramlarını bildiriblər.

Daha sonra Azərbaycan ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinskilərin yaşadıqları evə vurulmuş xatirə lövhəsinin açılış mərasimi olub.

Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani açılış mərasimində çıxış edərək Cavad və Rüstəm Şıxlinskilərin ordu quruculuğundakı xidmətlərindən danışaraq onların həyat və fəaliyyətlərinin gənc nəslə bir örnək olduğunu bildirib. Eyni zamanda, ilk general rütbəsini almış Süleyman Əfəndiyevin həyatından söz açaraq yaxın günlərdə onun adının əbədiləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin görüləcəyini bildirib. Əyinlərində ilk hərbi geyim olan süvari əsgərlərin tədbirə qatılması iştirakçılar tərəfindən alqışlarla qarşılanıb. Lövhənin rəmzi açılışını bildirən ağ örpək götürüldükdən sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını, bütün qazaxlıları möhtəşəm bayram münasibətilə səmimi qəlbdən təbrik edib, keçirilən tədbirin qazaxlıların yaddaşında uzun müddət silinməz izlər buraxacağını qeyd edib.

Qonaqlardan - Milli Məclisin deputatları Ülviyyə Ağayeva, Kamran Nəbizadə, BDU-nun mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva, Sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov çıxış edərək bu gün Qazaxda bu cür yüksək səviyyədə tədbirin təşkil olunmasına görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev çıxış edərək müdafiə naziri Zakir Həsənovun adından bütün tədbir iştirakçılarını təbrik edib, Qazaxda vətənpərvərlik mövzusunda keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışıb.

Polkovnik Rüstəm bəyin nəvəsi Rüstəm Şıxlinski çıxış edərək bu cür yüksək səviyyəli tədbirin keçirilməsinə görə Prezident İlham Əliyevə və təşkilatçılara ailəsi adından öz dərin minnətdarlığını bildirib.

Möhtəşəm bayram tədbirində Vətən uğrunda canından keçmiş igid oğul və qızlarımızın da xatirəsi yad edilib, ruhlarına dua oxunub. "Fəxri qazaxlılar" parkı ilə tanış olduqdan sonra qonaqlar Şəhidlər Xiyabanına baş çəkərək memorialın önünə gül dəstələri qoyub və şəhidlərə olan ehtiramlarını bildiriblər.

Daha sonra bayramsayağı bəzədilmiş Mədəniyyət Mərkəzinin qarşısında "Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçirilən bayram tədbirinə start verilib.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qeyd edib ki, əsrin son illəri Azərbaycan üçün taleyüklü sınaq məqamları ilə zəngin olmuşdur. İctimai-siyasi, iqtisadi və mənəvi sahələrdə əldə edilmiş nailiyyətlər, həlledici anlarda vətənin və xalqın nicatı Heydər Əliyevin xalqla birliyi və uzaqgörən siyasəti ilə bilavasitə bağlıdır. 70 illik ağır sınaqlarla dolu bir yol keçən Azərbaycan azadlıq uğrunda mübarizədə neçə-neçə oğlunu qurban vermişdir. Hakimiyyət davası və səriştəsizlik, torpaqlarımızın mənfur erməni silahlı qüvvələri tərəfindən işğal edilməsinə şərait yaradırdı. Azərbaycanı bu bəladan xilas etmək, iqtisadi böhranlardan qorumaq üçün qüdrətli bir əl, dərin zəka, güclü məntiqə malik bir şəxsiyyət lazım idi. Belə bir şəxsiyyət isə Heydər Əlirza oğlu Əliyev idi. Təbii ki, xalq yeganə çıxış yolunu, öz qurtuluşunu Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görürdü.

Tədbir incəsənət ustalarının bayram konserti ilə başa çatdı.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Milli Qurtuluş Günü qeyd edildi

İmişlidəki Heydər Əliyev Mərkəzində "15 iyun Milli Qurtuluş Günü" münasibəti ilə geniş tədbir keçirildi. Tədbir öncəsi ulu öndərin abidəsi ziyarət edilərək abidə önünə təzə tər gül dəstələri qoyuldu. Tədbiri İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev açıq elan edərək dövlətimizin bugünkü müstəqil, güclü dövlətə çevrilməsində ümummilli liderimiz Heydər Əliyevin danılmaz əməyindən, uzaqgörən siyasətindən danışdı. O bildirdi ki, 1991-ci ildə müstəqilliyimiz elan edildikdən sonra hakimiyyətdəkilərin yarıtmaz fəaliyyəti nəticəsində müstəqilliyimiz, torpaqlarımızın bütövlüyü təhlükə qarşısında qalmışdı. Xalq birmənalı şəkildə Heydər Əliyevin respublikaya rəhbərlik etməsini tələb edirdi. Heydər Əliyev hakimiyyətə gələn kimi dövlətin daxilində olan çəkişmələri dayandırmaq və atəşkəsin əldə olunmasına nail olaraq dövlətin güclənməsi, iqtisadiyyatın yüksəlməsi yönümündə gərgin fəaliyyətə başladı. Heydər Əliyevin bu fəaliyyəti nəticəsində daxili və xarici siyasi sabitlik əldə edilərək iqtisadiyyatımız yüksələn xətlə inkişaf etməyə başladı. Bunun sayəsində bu gün regionda ən güclü orduya, ən güclü dövlətə sahibik. Ordumuzun gücü və qüdrəti aprel döyüşlərində özünü sübut etdi.



Bu gün Heydər Əliyev kursunun layiqli davamçısı, siyasi varisi Prezident İlham Əliyev dövlətimizin inkişafı və çiçəklənməsi yolunda yorulmaz fəaliyyət göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atılır. Azərbaycan Respublikasının sosial-iqdisadi inkişafı getdikcə sürətlənir, həyatın bütün sahələrində, daxili və xarici siyasətdə uğurlarımız ilbəil artır.

Daha sonra çıxış edən natiqlər Yasəmən Şirinova, Rabil Şıxəliyev, Əldursun İsayev bugünkü güclü, qüdrətli Azərbaycanın qurucusu Heydər Əliyevin dövlətə rəhbərliyi dövrünün müxtəlif tarixi məqamlarından söhbət açaraq ulu öndərin xalqımızın qəlbində və ruhunda daim yaşayacağını söylədilər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

## MÜASİR AZƏRBAYCAN TARİXİNİN ŞƏRƏF SƏHİFƏSİ

Gəncə Dövlət Universitetində (GDU) Milli Qurtuluş Gününə həsr olunmuş "Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin şərəf səhifəsidir" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə ilk öncə, Milli Qurtuluş Gününə həsr olunmuş videoçarx izlənilib. Universitetin rektoru professor Yusif Yusibov çıxışında 1993-cü ilin iyun hadisələri ərəfəsində respublikamızda yaranmış ağır vəziyyətdən danışaraq bildirmişdir ki, müstəqilliyimizin ilk illərində ölkəmizdə anarxiya, xaos hökm sürürdü. Belə çətin vəziyyətdə xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda Bakıya dəvət olundu, bundan sonra ölkədə ictimai-siyasi sabitlik yarandı. Ulu öndərin müdrik siyasəti nəticəsində bütün sahələrdə inkişafa nail olundu, dövlətçiliyimizə yönəlmiş qəsdlərin qarşısı hər dəfə qətiyyətlə alındı.



Humanitar məsələlər üzrə prorektor dosent Gülsüm Fətəliyeva qeyd edib ki, 1991-1993-cü illərdə baş verən siyasi təbəddülatlar, iqtisadi böhran, hərc-mərcliyin doğurduğu anarxiya və cəbhədəki uğursuzluqlar Azərbaycana qətiyyətli, təcrübəli liderin rəhbərlik etməsini qaçılmaz zərurətə çevirmişdi. Xaotik proseslər və bunun fonunda hakimiyyətdəkilərin qətiyyətsizliyi təsdiq edirdi ki, yalnız möhkəm siyasi iradəsi olan rəhbər Azərbaycanı parçalanmaqdan qurtara, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır missiyanın öhdəsindən gələ bilər. Bu lider isə xalqın məhəbbətini hələ uzun illər əvvəl qazanmış Heydər Əliyev idi.

YAP-ın GDU-dakı ilk partiya təşkilatın sədri, dosent Cavid Bağırzadə, Ümumi tarix kafedrasının dosenti Hüseyn Bəxtiyarov və Azərbaycan tarixi kafedrasının baş müəllimi Elminaz Namazova çıxışlarında vurğulayıblar ki, Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etsə də, dövrün doğurduğu ağır problemlərin öhdəsindən gələ bilməmişdi. Nəticədə iqtisadi tənəzzül dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının, insan hüquq və azadlıqlarının qorunmasında ciddi problemlər yaranmışdı.

Heydər Əliyev 1993-cü il oktyabrın 3-də müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkədəki siyasi hakimiyyət böhranı tam aradan qaldırıldı. Qısa vaxtda yüksək döyüş qabiliyyətli, vahid komandanlıqdan idarə olunan ordu yaradıldı.

Tədbirdə o da vurğulanıb ki, ulu öndər Heydər Əliyevin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir. Sonda pedaqoji fakültənin dekanı dosent Bayram Apoyev və tarix-coğrafiya fakültəsinin III kurs tələbəsi Çinarə Hümbətova Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər səsləndirərək dahi şəxsiyyətin yaddaşlarda daim yaşayacağını bildiriblər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Milli Qurtuluş Gününə və Ramazan bayramına həsr edilmiş tədbir

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətində (DBNX) Dövlət Xidmətinin və onun tabeliyində olan Epizootiya və Zoonoz xəstəliklər Əleyhinə Respublika Ekspedisiyası əməkdaşlarının iştirakı ilə 15 İyun - Milli Qurtuluş Gününə və Ramazan bayramına həsr olunmuş tədbir keçirilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəisi vəzifəsini müvəqqəti icra edən Bayandur Rzayev bildirdi ki, 1993-cü il iyunun 15-i Azərbaycan tarixində ən əlamətdar günlərdən biridir. Həmin gün ikinci dəfə hakimiyyətə qayıdan xalqımızın dahi rəhbəri





Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan parçalanmaq təhlükəsindən xilas olub, ölkənin ictimai-siyasi, sosial-iqtisadi sabitliyi təmin olunub. B.Rzayev, həmçinin vurğuladı ki, müstəqil Azərbaycan Respublikası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və qabaqcıl dünya dövlətləri sırasında öz yerini möhkəmləndirir.

Tədbirdə digər çıxış edənlər 1993-cü ilin iyun hadisələri ərəfəsində respublikamızda yaranmış ağır vəziyyətdən, belə bir dövrdə xalqın və ziyalıların təkidi ilə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından danışıblar. Ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti, yeritdiyi müdrik daxili və xarici siyasət nəticəsində müstəqilliyimizin dönməz xarakter aldığını, dövlət quruculuğu, milli ordunun formalaşdırılması, beynəlxalq aləmdə Azərbaycanın demokratik imicinin artması sahəsində böyük işlər görüldüyü vurğulanıb. Həmçinin MDB məkanında ilk dəfə Azərbaycanda torpaq islahatı aparıldığı və torpağın öz sahibinə verildiyi bildirilib.

Qeyd edilib ki, ulu öndərin gördüyü nəhəng işlər, onun ideyaları, siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# İçərişəhərdə gənc rəssamlar üçün incəsənət müsabiqəsi

## *Azercell "Yaşa Azərbaycanım" Filateliya və uşaq rəsm sərgisinə dəstək olub*

**Korporativ sosial məsuliyyət siyasətində uşaqlara qayğı və diqqətə böyük önəm verən Azercell Telekom bu dəfə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azermarka, İçərişəhərin təşkilatçılığı ilə "Yaşa Azərbaycanım" adlı Filateliya və uşaq rəsm sərgisinə öz töhfəsini verib.**



Məlumat üçün bildirək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan 5-14 yaşlı uşaqlar arasında keçirilən "Yaşa Azərbaycanım" adlı rəsm müsabiqəsinə ümumilikdə 93 rəsm əsəri təqdim olunub. Onların arasında vətənpərvərlik mövzusunda rəsmlər çoxluq təşkil edib. "Yaşa Azərbaycanım!" adı altında müsabiqənin keçirilməsində başlıca məqsəd uşaqlarda vətənpərvərlik və vətənə məhəbbət, milli tariximizə bağlılıq hissinin aşılanması, milli adət-ənənələrin təbliği və onların yaradıcılıq potensialını üzə çıxarmaqdan ibarətdir.

"Zəncirli mülk" sərgi qaleriyasında baş tutan sərgidə fərqlənən 12 nəfər iştirakçıya Azercell Telekom tərəfindən xüsusi hədiyyələr təqdim edilib. Hədiyyələri Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə təqdim edib.

Qeyd edək ki, Azercell şirkətinin Korporativ Sosial tədbirlərinin əksər qismi uşaqların gələcək inkişafına yönələn layihələrdir. Uşaq hüquqlarının qorunması, müdafiəsi ilə bağlı həyata keçirdiyi layihələri ilə hər zaman seçilən şirkət bu istiqamətdə fəaliyyətini davam etdirir.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Suraxanı rayonunda "Son iclas" bədii-sənədli filminin təqdimatı olub

**21 iyun 2018-ci il tarixdə Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin, Suraxanı Rayon İcra Hakimiyyətinin, YAP Suraxanı Rayon Təşkilatının, Bakı Media Mərkəzinin birgə təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanan "Son iclas" bədii-sənədli filminin rayon ictimaiyyətinə təqdimatı keçirilib.**






Təqdimat mərasimində millət vəkili Ağacan Abiyev, rayon icra hakimiyyəti başçısı yanında Şuranın üzvləri, filmin ssenari müəllifi Müsəllim Həsənov, quruluşçu rejissoru Fuad Əlişov, quruluşçu operatoru Rəşad Nuriyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin akt zalında keçirilən təqdimatda filmin nümayişindən əvvəl layihə haqqında söhbət açan YAP Suraxanı Rayon Təşkilatının sədri Vüqar Seyidov təqdim olunan "Son iclas" bədii-sənədli filminin Azərbaycan Xalq Cümhuriyyətinin son günlərində baş verən hadisələrdən bəhs etdiyini bildirib. Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın baş prodüsseri olduğu ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizəsi əks olunur. Bu mübarizə faciə ilə başa çatsa da, onun Azərbaycanın istiqlal tarixinin şərəfli bir səhifəsi olduğu vurğulanır. Filmdə həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir.

Sonra "Son iclas" filminin təqdimatı oldu. Film böyük maraqla izlənildi.

Filmin nümayişindən sonra Bakı Media Mərkəzinin nümayəndəsi, filmin ssenari müəllifi Müsəllim Həsənov çəklişlə bağlı məlumat verərək bildirdi ki, quruluşçu rejissoru Fuad Əlişov, quruluşçu operatoru Rəşad Nuriyev, quruluşçu rəssamı Şahin Həsənli olan bu filmin çəkilişləri paytaxtla yanaşı, bölgələrdə, tarixi hadisələrin yaşandığı ərazilərdə lentə alınıb. Filmin ssenarisi bu günə qədər araşdırılmamış və ya gizli saxlanılmış arxiv sənədləri əsasında qələmə alınıb. Ümumilikdə, bu film layihəsi üzərində 6 aya yaxın iş aparılıb, çəkiliş günləri isə 32 gün davam edib və 25 məkanda çəkilişlər olub. Film layihəsi üzərində 700 nəfərlik heyət işləyib.

Təqdimatda çıxış edən Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov film haqqında danışaraq qeyd etdi ki, Heydər Əliyev Fondunun dəstəyi və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevanın baş prodüserliyi ilə çəkilmiş "Son iclas" bədii-sənədli filmi Azərbaycanın müstəqillik tarixinin nisbətən az öyrənilən daha bir qaranlıq səhifəsinə işıq salır, xalqımızın və dövlətimizin bugünkü uğurlara çatmaq üçün keçdiyi keşməkeşli tarixə qürur hissi ilə baxmağa imkan verir. Azərbaycan xalqı müstəqilliyə çatmaq, bugünkü uğurlara nail olmaq üçün uzun bir tarixi yol keçib, bu yolda çoxlu qurbanlar verib, uzun illər gərgin mübarizə aparmalı olub. Bu gün biz müstəqil, güclü, sürətlə inkişaf edən, dünya arenasında öz sözünü deyən Müstəqil Azərbaycanda yaşayırıq və öz tariximizlə fəxr edirik. Ulu Öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hakimiyyətə gəlişi ilə dövlət müstəqilliyinin qorunub möhkəmlənməsində, iqtisadiyyatın inkişafında, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsində yeni mərhələ başlanmışdır. Ulu Öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsində, müstəqilliyimizin qorunmasında möhtərəm Prezidentimiz cənab İlham Əliyevlə birgə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətlər göstərir.

Sonda İlqar Abbasov filmin yaradıçı heyətinə, filmin baş prodüsseri, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevaya rayon ictimaiyyətinin minnətdarlığını çatdırdı və yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Bakı Media Mərkəzinin nümayəndəsi, filmin ssenari müəllifi Müsəllim Həsənova Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin xatirə hədiyyəsi və YAP Suraxanı Rayon Təşkilatının təşəkkürnaməsi, rayonun fəal gənclərinə isə Azərbaycan Xalq Cümhuriyyəti mövzusunda yazılmış kitablar təqdim edildi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**




### ❑ GÜRCÜSTANDA YENİ BAŞ NAZİR VƏ HÖKUMƏT TƏSDİQ OLUNUB



Gürcüstan parlamenti iyunun 20-də keçirilən növbədənkənar iclasında yeni baş nazir Mamuka Baxtadzeyə və hökumətə etimad göstərib. "APA"nın məlumatına görə, əvvəlki hökumətdən fərqli olaraq yeni hökumətdə iqtisadiyyat və davamlı inkişaf, xarici işlər və maliyyə naziri dəyişib.

Verilən xəbərə əsasən, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsinə Giorgi Çerkezişvili, xarici işlər naziri vəzifəsinə David Zalkaliani, maliyyə naziri vəzifəsinə isə Nikoloz Qaqua təsdiq olunub.

Eyni zamanda, bildirilir ki, parlamentin etimad göstərdiyi hökumət müvəqqəti hökumət hesab olunur. Belə ki, ölkə qanunvericiliyinə ediləcək müvafiq düzəlişlərdən sonra nazirliklərin sayı 14-dən 11-dək azaldılacaq.

Bununla yanaşı, baş nazir Mamuka Baxtadze bir neçə həftə ərzində yenilənmiş hökumətin tərkibini təqdim edəcək və parlament bir daha hökumətə etimad göstərməli olacaq.

Məlumata görə, ölkədə bir neçə nazirliklərin birləşdiriləcəyi gözlənilir. Mamuka Baxtadze yeni hökumətdə bir neçə yeni simanın olacağını bildirib.

Qeyd edək ki, Gürcüstanın keçmiş baş naziri Giorgi Kvirikaşvili iyunun 13-də istefa verib. İyunun 14-də parlament çoxluğu maliyyə naziri Mamuka Baxtadzenin baş nazir vəzifəsinə namizədliyini irəli sürüb.

### ❑ ABŞ BMT-nin İNSAN HÜQUQLARI ŞURASINI TƏRK EDİB



ABŞ BMT-nin İnsan Hüquqları Şurasını tərk etmək qərarına gəlib. "APA"nın məlumatına görə, bu barədə ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Nikki Heyli bildirib.

"ABŞ rəsmi olaraq BMT-nin İnsan Hüquqları Şurasını tərk edir. Çünki bu qurumda təmsil olunan ölkələrin özü bilavasitə bu haqların pozucularıdır", - deyə Nikki Heyli bəyan edib.

Eyni zamanda, ABŞ-ın dövlət katibi Mayk Pompeo isə ölkəsinin milli maraqlarının pozulduğunu vurğulayıb. O deyib: "Əgər təşkilat bizim və müttəfiqlərimizin milli maraqlarını pozursa, biz onun üzvü olmaqdan imtina edirik. Onu da deyim ki, Nikki Heyli artıq bir ildən çoxdur ki bu təşkilatda islahatlar həyata keçirməyə çalışır".

Bununla yanaşı, xəbər verilir ki, rəsmi Vaşinqtonun bu addımına bir sıra ölkələrdən reaksiya gəlib. Belə ki, İsrail bu diplomatik jesti alqışlayıb, Rusiya isə ABŞ-ın Şuranı ondan öz maraqları naminə istifadə edərək, yararsız hesab etdiyi dövlətləri cəzalandırmaq cəhdində ittiham edib.

Məlumat üçün qeyd edək ki, hazırda BMT-nin İnsan Hüquqları Şurasına ümumilikdə 47 dövlət daxildir. Bu dövlətlərdən 13-ü Afrika regionu, daha 13-ü Asiya-Sakit okean, 8-i Latın Amerikası və Karib ölkələri, 7-si Qərbi Avropa, 6-sı Şərqi Avropanın payına düşür.

### ❑ NEFT BAZARINDA QEYRİ-STABİLLİK DAVAM EDİR




Dünyanın neft bazarında qeyri-stabillik davam edir. "APA"nın məlumatına görə, sutka ərzində "Brent" markalı neft bahalaşsa da, yenidən ucuzlaşıb, Qərbi Texas markasının qiymətlərində isə ciddi dəyişiklik baş verməyib.

Verilən xəbərə görə, dünyanın ən böyük iki iqtisadiyyat nəhəngi - ABŞ və Çin arasında ticarət müharibəsi yenidən qızışmaqdadır. ABŞ prezidenti Donald Tramp Çin mallarına 200 milyard dollarlıq idxal vergisi qoyacağını bildirib. Çin isə buna layiqli cavab verəcəyini açıqlayıb.

Bununla yanaşı, İran isə OPEK-in istehsalı artırmaqla bağlı razılaşma əldə edə bilməyəcəyini açıqlayıb. İstehsalı cüzi şəkildə də olsa artırmaq təklifini rədd edən İran, bu həftə keçiriləcək OPEK toplantısında Səudiyyə Ərəbistanı ilə qarşı-qarşıya gələcək.

Məlumata əsasən, Rusiya və Səudiyyə Ərəbistanı birlikdə gündəlik neft istehsalını 1,5 milyon barrel artırmağı təklif edir. İran, İraq və Venesuela neft istehsalının artırılmasının hələ çox tez olduğu qənaətindədir.

Hazırda "Brent" markalı neftin bir barreli 73,71 dollardan, Qərbi Texas nefti isə 65,62 dollardan satılır.

### ❑ PENTAQON: "F-35"lər TÜRKİYƏYƏ TƏHVİL VERİLƏCƏK



ABŞ Senatının qərarına baxmayaraq, ilk "F-35" qırıcıları Türkiyəyə təslim ediləcək. "APA"nın məlumatına görə, belə bir açıqlamanı ABŞ-ın Müdafiə Nazirliyini yayıb.

Verilən xəbərə görə, daha öncə ABŞ Senatı Türkiyəyə "F-35" qırıcılarının satılmasına qarşı qanun qəbul olunması təklifi ilə çıxış etmişdi.

Bildirilir ki, Penatqon Senatın Türkiyəyə "F-35" hərbi təyyarələrinin satılmasını qadağan edən təklifi qəbul etsə də, iki ədəd təyyarə Texas ştatının Fort Vörs şəhərində keçiriləcək tədbirdən sonra Türkiyəyə təslim ediləcək.

Qurumun sözçüsü Mayk Endryus bildirib ki, təyyarələr ilk mərhələdə "Luk" Hərbi Hava Qüvvələri bazasına veriləcək. Türkiyənin "F-35" pilotları və mütəxəssisləri artıq "Luk" bazasındadır və yaxın zamanda uçuş təlimlərinə başlayacaqlar.

Eyni zamanda, Mayk Endryus Senatın qərarına münasibət bildirməyəcəyini vurğulayıb. O əlavə edib ki, Türkiyə NATO-nun ən önəmli müttəfiqlərindən və 2002-ci ildən bu yana "F-35" proqramının beynəlxalq iştirakçılarından biridir.

Məlumat üçün qeyd edək ki, Senatın qərarının qüvvəyə minməsi üçün prezident Donald Trampın onu imzalaması tələb olunur. ■

# "AzerTelecom" Bakı və regionlarda infrastrukturunu genişləndirir

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC Bakı və regionlarda malik olduğu infrastrukturunu genişləndirir.**

AzerTelecom

Şirkət tərəfindən bu istiqamətdə şəbəkə yenilənməsi, infrastruktunun dayanıqlılığının daha da artırılması üçün müvafiq işlər həyata keçirilir.

Görülən tədbirlərin məqsədi müasir DDM texnologiyasına əsaslanan şəbəkənin dayanıqlılığının və ötürmə həcminin daha da artırılması, internet servis provayderlərinə və korporativ müştərilərə təqdim olunan çeşidli telekommunikasiya xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi və eləcə də dünya informasiya və kommunikasiya texnologiyaları sahəsində yeni yanaşmaların ölkəmizdə tətbiqidir. Bu məqsədlə "AzerTelecom" artıq ölkə üzrə müxtəlif regionlarda texniki istiqamətli layihələr həyata keçirir ki, bu layihələrin icrası nəticəsində də şirkətin malik olduğu infrastruktur daha da möhkəmləndirilir, xidmət səviyyəsi isə artmaqdadır.

Qeyd edək ki, şirkət tərəfindən həyata keçirilən tədbirlər korporativ müştərilərin təqdim olunan müasir telekom xidmətləri ilə etibarlı şəkildə təmininə şərait yaradır. "AzerTelecom" MMC-nin fiber-optik kabel şəbəkəsi Naxçıvan Muxtar Respublikası da daxil olmaqla Azərbaycanın bütün əsas bölgələrini və şəhərlərini əhatə edir. Şirkətin beynəlxalq şəbəkəsi isə etibarlı və nüfuzlu beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməklə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir.

**"AzerTelecom" MMC barədə:**

*"AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), lokal VoİP, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.*

# Göyçay çayı üzərindəki körpünün dağılaraq yararsız vəziyyətə düşməsi ilə əlaqədar cinayət işləri başlanılıb

**Məlum olduğu kimi, 2018-ci il iyun ayının 2-də Göyçay rayonu ərazisində baş vermiş güclü leysan zamanı Bakı-Şamaxı-Yevlax yolunun 217-ci kilometrində Göyçay çayı üzərində yerləşən körpü qum-çınqıl yataqlarında aparılan qanunsuz istismar işləri səbəbindən dağılaraq yararsız vəziyyətə düşüb, nəticədə dövlətə 3 milyon manatdan çox ziyan dəyib.**

Respublika Baş Prokurorluğunun, Daxili İşlər, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olan birgə məlumatda bildirilir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən ayrı-ayrı şəhər və rayonlarda fəaliyyət göstərən 250-yə yaxın qum-çınqıl karxanasından 81-də monitorinq aparılıb. Müəyyənləşdirilib ki, son dövrlər bəzi dövlət orqanları və sahibkarlıq subyektləri tərəfindən yer təkinin qorunması, xüsusən çay yataqlarının istifadəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş standartlar, normativlər, qaydalar və lisenziyalaşdırma şərtləri kobud surətdə pozulduğundan ətraf mühitə, infrastruktur obyektlərinə, su təchizatı şəbəkələrinə, hidrotexniki qurğulara və sahilbərkitmə bəndlərinə ciddi təhlükə yaranıb, çay məcraları kəskin eroziyaya məruz qalıb.

Aşkarlanmış qanunsuzluqlarla bağlı toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 255-ci (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanılıb, eləcə də hüquq mühafizə orqanlarının təcrübəli əməkdaşlarından və aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət istintaq-əməliyyat qrupları yaradılaraq təxirəsalınmaz tədbirlər həyata keçirilib.

İstintaq araşdırmaları göstərib ki, karxanalardan 14-ü lisenziya və digər müvafiq sənədlər olmadan qanunsuz şəkildə qum-çınqıl istehsalı ilə məşğul olub, daha 41 karxana isə yataqların istismarının dayandırılması barədə Nazirlər Kabinetinin qərarına zidd olaraq fəaliyyətini davam etdirib və nəticədə dövlətə 16 milyon manatdan çox ziyan vurulub.

Konkret olaraq "Göyçay" qum-çınqıl yatağında istismar işləri aparan karxanalar ətraf mühitə 4 milyon manatdan çox, Mingəçevir şəhərində və Yevlax rayonunda yerləşən 16 karxana 700 min manatdan artıq, Şamaxı, İmişli, Şəmkir, Qazax, Quba, Qusar, Tərtər və Bərdə rayonları ərazisində yerləşən 56 karxana isə 8 milyon manatdan çox ziyan vurub.

Göstərilən hüquqazidd əməllərə yol verdiklərinə görə "ATF" MMC-nin təsisçisi və faktiki rəhbəri Fəxrəddin Muradov, "Azpod" MMC-nin qum-çınqıl zavodunun direktoru Nəcməddin Əliyev, "Elnicat" MMC-nin direktoru Bəhruz Sadayev, "Titanik-5" MMC-nin təsisçisi və faktiki rəhbəri Şahin Məmmədov, fiziki şəxslər Natiq Zakirov, Nazim Qasımov, Nəriman Yəhyayev Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə həbs olunublar. "Azəraqrartikinti" ASC-nin Göyçay qum-çınqıl filialının istehsalat rəisi Allahverdi Allahverdiyev və "Gülövşə" MMC-nin təsisçisi Mahir Allahverdiyev barəsində polisin nəzarəti altına verməqətimkan tədbiri seçilib. "Attinak" MMC, "Bayburt Qrup" Anonim Şirkəti, habelə bir sıra digər hüquqi və fiziki şəxslər barəsində araşdırmalar davam etdirilir.

Hazırda istintaqı aparılan cinayət işləri üzrə bütün təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirilir.

**AZƏRTAC**

# "Temrin" ədəbiyyat jurnalı azərbaycanlı yazıçının yaradıcılığına geniş yer ayırıb

**Türkiyənin nüfuzlu yayın şirkətlərindən olan "Ferfir" azərbaycanlı yazıçı Əlabbası (Bağırov) türkdilli oxuculara təqdim edib.**

AZƏRTAC xəbər verir ki, "Ferfir"in aylıq nəşri olan "Temrin" jurnalı növbəti nömrəsində Əlabbasın həyat və yaradıcılığına geniş yer ayırıb. Nömrədə yazıçının bioqrafiyası verilir və bədii yaradıcılığından bəhs olunur. Bundan başqa, yazıçının ayrı-ayrı vaxtlarda dərc olunan iki böyük müsahibəsi də oxuculara təqdim edilir. Yazıçı müsahibələrində müasir Azərbaycan ədəbiyyatında gedən proseslər, ədəbiyyatın cəmiyyətin inkişafındakı rolu və s. məqamlara dair dəyərli fikir və mülahizələrini bölüşür. Yazılarda yazıçının həyatının müxtəlif məqamlarını əks etdirən, o cümlədən tanınmış elm və mədəniyyət xadimləri, ədəbiyyat adamları ilə fotoları da yerləşdirilib.

"Azərbaycan aydınları Əlabbas Bağırov haqqında" hissədə isə müasirləri və qələm dostları yazıçının yüksək insani keyfiyyətləri, onun nadir ədəbi üslubu haqqında düşüncələrini bölüşüblər.

Jurnalda həmçinin Əlabbasın "Bitişik masalar" və "Rəzalət" hekayələri də türkdilli oxucuların ixtiyarına verilib.

Türk dünyası ədəbiyyatını tanıtmağı qarşısına məqsəd qoyan "Ferfir" jurnalının Əlabbasın yaradıcılığına maraq göstərməsi təsadüfi deyil. Son vaxtlar yazıçının hekayələri türk, rus, ingilis və fars dillərinə tərcümə olunmaqla oxucu çevrəsini sürətlə genişləndirir.

Yazıçı-publisist Şərəf Yılmazın rəhbərliyi ilə fəaliyyət göstərən "Ferfir" yayınçılıq şirkəti Azərbaycan ədəbiyyatının, şair və yazıçılarımızın təbliğinə üstünlük verir.




Qeyd edək ki, Əlabbas Bağırov "Qiyamçı", "Qaraqovaq çölləri", "Köhnə kişi", "Gümüşü gecələr", "Gözəl", "Halal qan", "Mərənd ölüsü" kimi əsərlərlə ədəbiyyatımızın daha da zənginləşməsinə böyük töhfələr verib. Yazıçının ədəbi ictimaiyyət arasında ilk əsərinin adı ilə - "Köhnə kişi" kimi tanınması da onun bənzərsiz və özünəməxsus yaradıcılıq üslubundan irəli gəlir. Cari ilin may ayında İranın Təbriz şəhərində nəşr olunan "Məhdi-Təməddün" və Urmiyanın "Dəniz" qəzetləri müasir ədəbiyyatımızda "hekayə ustası" titulu ilə oxucuların rəğbətini qazanan Əlabbasın "Yolda adam" hekayəsini dərc edib.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı

# AÇIQ TENDERİ ELAN EDİR

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun "Avtomatlaşdırılmış Baş Mühasibat Uçotu Sistemi"nin yenilənməsi ilə bağlı mal və xidmətlərin satın alınmasına dair Açıq tender.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları http://www.mcgf.az ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Tender üzrə prosedurlar **07 avqust 2018-ci il tarixində saat 15.00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidir:**

- Tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- Təklif;
- Təklifin qiymətinin 1 faizi həcmində təminat (bank qarantiyası);
- iddiaçının hüquqi statusunu əks etdirən sənədlərin *(nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN, ƏDV qeydiyyatının olub-olmamasını müəyyən etməyə imkan verən sənəd və s.)* notariat qaydasında təsdiq edilmiş surətləri;
- iddiaçının iş təcrübəsini təsdiq edən sənədlərin surətləri;
- Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;
- iddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış *(Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən arayışlar);*
- İddiaçının anoloji işlərdə təcrübəsi, maliyyə, potensial texniki və kadr imkanlarına dair:
  - ✓ Son 3 ildə iddiaçının orta illik dövriyyəsinin 500 000 (beş yüz min) manatdan az olmamasını təsdiq edən sənəd;
  - ✓ Oxşar layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;
  - ✓ İddiaçının layihənin icrasına cəlb olunacaq işçilərinin tərcümeyi-halları və texniki kvalifikasiyalarını təsdiq edən sənədlər;
  - ✓ Əsas şərtlər Toplusuna 1 №-li Əlavədə qeyd olunan digər sənəd və məlumatlar.
- Əsas şərtlər toplusunda qeyd olunan digər sənəd və məlumatlar.
- İddiaçı təqdim edəcəyi xidmətlərin keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

**Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidir:**

- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- tender prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

Əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinin 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**İcra müddəti:** Açıq tenderin Əsas şərtlər toplusuna uyğun olaraq müəyyən edilmişdir.

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Açıq tenderdə **iştirak haqqı 250 manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra tenderin Əsas şərtlər toplusu malgöndərənlərə təqdim ediləcəkdir:

**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**
**Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 40**
**VÖEN: 1403502281**
**H/h: AZ57NABZ01360450000000005944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**VÖEN: 9900071001**
**Kod: 501004**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.İ.F.T bik: NABZAZ2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender üzrə ilkin sənədlər **26 iyul 2018-ci il** tarixinədək, təklif zərfləri və təklifin təminatı isə **06 avqust 2018-ci il** tarixinədək qəbul ediləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 133), Faks: (+99412) 598-11-77.

**Açıq tender komissiyası.**

---

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

## Acer i7 Processor/8Gb DDR4/500Gb HDD/DVDRW-CR/ Monitor Acer 54.6 cm (21.5") Full HD (1920 x 1080) DVI VGA və Acer i5 Processor /4Gb DDR4/500Gb HDD/DVDRW-CR/ Monitor Acer 54.6 cm (21.5") Full HD (1920 x 1080) DVI VGA masaüstü kompüterlərin satınalınması məqsədilə 1 lotdan ibarət

# AÇIQ TENDER ELAN EDİR

**Lot-1: Acer i7 Processor/8Gb DDR4/500Gb HDD/DVDRW-CR/ Monitor Acer 54.6 cm (21.5") Full HD (1920 x 1080) DVI VGA və Acer i5 Processor /4Gb DDR4/500Gb HDD/DVDRW-CR/ Monitor Acer 54.6 cm (21.5") Full HD (1920 x 1080) DVI VGA masaüstü kompüterlərin satınalınması**

İştirakçılara təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən lot üzrə Tender təkliflərini yazılı surətdə möhürlənmiş, imzalanmış ikiqat zərflərdə Azərbaycan dilində təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərcləri nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Potensial imkanı olan iddiaçılar 2000 (iki min) manat iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra lot üzrə əsas şərtlər toplusunu "Azərbaycan Hava Yolları" QSC-nin Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu ünvanında ala bilərlər:

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu, VÖEN: 9900000831

"Bank Silk Vey" Açıq Səhmdar Cəmiyyəti, M/h AZ70NABZ 01350100000000020944,Bankın kodu: 507473, VÖEN: 9900006241, SWİFT BİK: AZAL AZ 22, H/H AZ 15 AZAL 38050001000000000000;

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının oxşar işlərinin aparılması üzrə təcrübəsi haqqında arayış;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı və hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN və s.) surəti, həmçinin rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tender təklifinin qüvvədə olma müddəti (zərflərin açıldığı gündən sonra ən azı 30 (otuz) bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifinin təminatı ümumilikdə təklifin 4% (dörd faizi) həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 (altmış) bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifinin bütöv sifariş üzrə qiymətləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 26 iyul 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 06 avqust 2018-ci il saat 18:00-a qədər Azərbaycan Respublikası, AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportuna təqdim etməlidirlər.

İddiaçıların tender təklifi zərfləri 07 avqust 2018-ci il tarixində saat 11:00-da AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu ünvanında açılacaq.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaq.

İddiaçının səlahiyyətli nümayəndəsi zərflərin açılması prosedurunda iştirak edə bilərlər.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Vadim Tixonov 4972600 (əlavə 4010);

**Tender Komissiyası.**

---

TƏKRAR

## Nəsimi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi

# AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**
**Lot-1.** Təsərrüfat mallarının satınalınması.
**Lot-2.** Yumşaq inventarların satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Hər lot üzrə iştirak haqqı 50 (əlli) manat.**
**Tel.: 050-378-51-51. Cavadov Elşad.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**A1. Emitent (ödəyən) bank**
**Adı: "Kapital Bank" ASC-nin Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN (bank): 9900003611**
**Müxbir hesab:**
**AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. BIK: AIIBAZ2X**
**A2. Ödəyici**
**Adı: Nəsimi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi**
**H/h AZ35AİİB33010019441100227111**
**VÖEN: 1400332551**
**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küç. 112**
**nesimirayonmktb@mail.ru**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 12 iyul 2018-ci il saat 18:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 23 iyul 2018-ci il tarixdə saat 18:00-a qədər təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 24 iyul 2018-ci il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 22.06.2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan **"Bakı Metropoliteni" QSC-yə dəftərxana və ofis ləvazimatlarının satınalınması"** üzrə Açıq Tenderin vaxtı 12 iyul 2018-ci il tarixə saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 iyul 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11 iyul 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "İnnovasiyalar Mərkəzi" MMC xüsusi geyim formalarının təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99412) 444-74-44, daxili-2649 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 11.07.2018-ci il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Həsən Əliyev küçəsi 36 (1 saylı Bakı "ASAN xidmət" mərkəzinin inzibati binası, 5-cı mərtəbə, "İnnovasiyalar Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti).*

---

**Teleradio İB-nin MRTY Filialının Fatmayı (1-ci lot) və Xaltan (Quba rayonu) (2-ci lot) stansiyalarını qidalandıran elektrik veriliş xətlərinin təmiri və daxili enerji təsərrüfatının rekonstruksiyası işləri üzrə açıq tenderdə iddiaçıların sayında yetərsay olmadığından Tender Komissiyasının 21 iyun 2018-ci il tarixli qərarına əsasən tenderin vaxtı 7 gün uzadılır. Belə ki, İddiaçılar Qeydiyyat üçün sənədləri 17 iyul 2018-ci il tarixədək, Tender təklifini və Tender təklifinin təminatını (1 nüsxə əsli, 2 nüsxə surəti olmaqla) müvafiq qaydada möhürlənmiş zərflərdə 27.07.2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, A.Abbaszadə küçəsi, 2 ünvanında yerləşən Teleradio İB-nə (Ümumi şöbəyə) təqdim etməlidirlər.**

**Tender proseduru 30.07.2018-ci il tarixdə Bakı (Azərbaycan) vaxtı ilə saat 11:00-da Teleradio İB-nin iclas zalında (ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, A.Abbaszadə küçəsi, 2) başlayacaqdır.**

**Bildiririk ki, ilkin olaraq 1-ci lot üzrə 600 AZN təyin edilmiş tenderdə iştirak haqqı 200 AZN-ə, 2-ci lot üzrə 110 AZN təyin edilmiş tenderdə iştirak haqqı 50 AZN-ə endirilir.**

**Tender Komissiyası.**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Texnologiya Universiteti

## aşağıda adları göstərilən kafedra üzrə vakant olan vəzifənin tutulması üçün

# MÜSABİQƏ ELAN EDİR

- Ali riyaziyyat və fizika kafedrası: professor - 1 yer

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 401 nömrəli 07 avqust 1996-cı il tarixli "Ali təhsil müəssisələrində kafedra müdiri, professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən başlayaraq 30 gün müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan:** *AZ 2011, Azərbaycan, Gəncə şəhəri, Ş.İ.Xətai pr. 103.*

**Əlaqə telefonu:** *022-257-56-29.*

**Rektorluq.**

---

TƏKRAR

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti
## dərman preparatları və sarğı materiallarının satınalınması məqsədilə

# AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı *(manatla)* |
|---|---|---|
| Lot 1 | Dərman preparatları və sarğı materialları | 200 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel.: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır *(xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri *(tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla)* 10 iyul 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 19 iyul 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 20 iyul 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin Tender Komissiyası.**

---

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Bildiriş. "Respublika" qəzetinin 15 iyun 2018-ci il tarixli sayında Bakı Xoreoqrafiya Akademiyasının dərc olunmuş tender elanında "Lot-1. İdarənin xərcləri (balet üçün xüsusi yer örtüyü)" cümləsi Lot-1. İnventarların satınalınması kimi oxunmalıdır. Tender Komissiyası.

Abdullayeva Züleyxa Mehralı qızının adına JN-066 F (kod: 30401018) saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Şıxəkəran kəndində Səfərov Əziz İsmayıl oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 443 F; KOD 80222028) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-ci il tarixli 18 nömrəli qərarı ilə Ərçivan qəsəbəsinin sakini Əliyev Orucəli Yəhya oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 064 A; KOD 80100018) itdiyi etibarsız sayılır.

---

TƏKRAR

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
## Şəki Rayon Mərkəzi Xəstəxanası
## 2018-ci il üçün cari və əsaslı təmir işlərinin aparılması ilə əlaqədar

# TENDER ELAN EDİR

**LOT-1. Cari təmir**
**LOT-2. Əsaslı təmir**

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, müvafiq maddi-texniki bazanın, anbarların, lazımi sayda işçi qüvvəsinin olması və maliyyə imkanları.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər: Əlaqələndirici şəxs; Kərimov Nüsrət Musa oğlu, tel.: 055 605 05 99 (saat 9:00-dan18:00-dək bayram və bazar günlərindən başqa) ünvan: Şəki şəhəri, Z.Əliyeva 177 Şəki RMX.

Maraqlananlar LOT-lar üzrə "əsas şərtlər toplusu"nu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıdakı göstərilmiş ünvandan ala bilərlər.

**Lot - 1 üzrə - 100 (bir yüz) manat**
**Lot - 2 üzrə - 150 (bir yüz əlli) manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Hesab:*
*AZ03AİİB32051019447000201170*
*VÖEN: 3000100721*
*Bank: "Kapital Bank"ın Şəki filialı*
*Kodu: 200703*
*VÖEN: 3000104011*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T: AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 17 iyul 2018-ci il saat 16:00-a kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün ərizə;*
- *İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *Malgöndərənin tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Malgöndərənin son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış:*
- *Malgöndərənin satınalma müqaviəsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə arayış;*
- *Malgöndərənin Azərbaycan Respublikasında vergiərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq təşkilatlardan arayışlar.*

Göstərilən bütün sənədlərin tam və dolğun şəkildə təqdim olunması vacibdir. Surəti təqdim olunan sənədlərin notarial qaydada təsdiqi məcburidir. Əks halda sənədlər qəbul edilməyəcək.

İddiaçılar öz tender təkliflərini (zərflərin açıldığı tarixdən azı 30 Bank günü müddətində qüvvədə olmalıdır) və tender təklifinin 1%-i həcmində tender təminatını (zərflərin açıldığı tarixdən ən azı 60 Bank günü müddətində qüvvədə olmalıdır). 2 nüsxədən ibarət (əsli, surəti) ikiqat zərfdə imzalanıb - möhürlənmiş vəziyyətdə 24 iyul 2018-ci il saat 16:00-a kimi tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərinin açılışı 25 iyul 2018-ci il saat 16:00-da Şəki Rayon Mərkəzi Xəstəxanasında olacaqdır.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Milli Elmlər Akademiyası İdarəetmə Sistemləri İnstitutunun kollektivi ümumi işlər üzrə direktor müavini, texnika üzrə fəlsəfə doktoru, dosent Qədimov Rauf Mustafa oğluna, qardaşı**

**NİHATIN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin dekanlığı və Gender və tətbiqi psixologiya kafedrasının əməkdaşları kafedranın psixologiya üzrə fəlsəfə doktoru Vəfa Nağıyevaya, anası**

**SƏYYARƏ xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
21.06.2018